DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 11 (328) / NOYABR 2018-Cİ İL

# PREZİDENT İLHAM ƏLİYEV ABŞ-IN TANINMIŞ DİN XADİMLƏRİNİ QƏBUL EDİB



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 26-da ABŞ-ın tanınmış din xadimləri ravvin Abraham Kuperi və yevangelist icmasının nümayəndəsi Conni Muru qəbul edib.**

Abraham Kuper hələ sovetlər dövründə Azərbaycanda olarkən xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən dini icmaların azad fəaliyyəti üçün şəraitin yaradıldığının şahidi olduğunu deyib. Ravvin bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün dini icmaların, o cümlədən yəhudi icmasının nümayəndələrinin dinc və sərbəst fəaliyyəti üçün yüksək şəraitin yaradıldığını məmnunluqla qeyd edib.

Prezident İlham Əliyev Azərbaycanda bütün xalqların və dini icmaların nümayəndələrinin tarixən dinc yanaşı yaşadığını qeyd edərək, bu ənənələrin çoxəsrlik tarixə malik olduğunu bildirdi və müstəqillik dövründə bu meylin uğurla davam etdirildiyini, multikulturalizmin dövlət siyasətinin prioritetlərindən biri olduğunu, milli və dini tolerantlığın yüksək dərəcədə təmin edildiyini vurğulayıb. Dövlətimizin başçısı bildirib ki, bütün bunlar dövlətin həyata keçirdiyi siyasəti və xalqın iradəsini əks etdirir. Müxtəlif xalqların və dinlərin nümayəndələrinin ölkəmizdə bir ailə kimi dostluq şəraitində yaşadıqlarını vurğulayan Prezident İlham Əliyev onların Azərbaycanın ümumi inkişafına töhfə verdiklərini deyib. Dövlətimizin başçısı ravvin Abraham Kuperin və yevangelist icmasının nümayəndəsi Conni Murun ölkəmizə səfərinin əməkdaşlığın və qarşılıqlı anlaşmanın daha da möhkəmlənməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirib.

Söhbət zamanı Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi qeyd olunub.

## BERLİNDƏ "DİNLƏRARASI VƏ SİVİLİZASİYALARARASI DİALOQDAN ƏMƏKDAŞLIĞA DOĞRU" MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANS KEÇİRİLİB



Səh. 2

## "AZƏRBAYCANDA TOLERANTLIQ: DÜNƏN, BU GÜN, SABAH"



Səh. 8

## BİŞKEKDƏ "MÜASİR DÜNYƏVİ DÖVLƏTDƏ İSLAM" ADLI İKİNCİ BEYNƏLXALQ KONFRANS KEÇİRİLİB



Səh. 11

# BERLİNDƏ "DİNLƏRARASI VƏ SİVİLİZASİYALARARASI DİALOQDAN ƏMƏKDAŞLIĞA DOĞRU" MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANS KEÇİRİLİB



Noyabrın 19-da Berlin şəhərində Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) nəzdində fəaliyyət göstərən Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK), Azərbaycanın Almaniyadakı səfirliyinin, Almaniya-Azərbaycan Forumunun və Mədəni Diplomatiya Akademiyasının birgə təşkilatçılığı ilə "Dinlərarası və sivilizasiyalararası dialoqdan əməkdaşlığa doğru" mövzusunda beynəlxalq konfrans keçirilib.



Konfrans zamanı Azərbaycanın multikultural və tolerant həyatını əks etdirən vizual və əyani materiallar, kitab və albomlardan ibarət sərgi-ekspozisiya nümayiş etdirilib.

Üç yüzə yaxın nümayəndənin qatıldığı tədbirdə Azərbaycan və Almaniyanın dövlət, ictimaiyyət, elm və din xadimləri, o cümlədən dünyanın 40-a yaxın ölkəsindən müxtəlif dini konfessiyaların, beynəlxalq təşkilatların rəhbərləri, Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin himayədarlar və məşvərət şuralarının üzvləri, Almaniyada akkreditə olunmuş diplomatik korpusun təmsilçiləri iştirak ediblər.

Tədbirdə çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadə Prezident İlham Əliyevin salamlarını və xoş arzularını Almaniya dövlətinə və xalqına çatdırıb. Azərbaycanda milli və bəşəri dəyərlərə hər zaman böyük önəmin verildiyini bildirən A.Paşazadə qeyd edib ki, ölkəmizdə dini-mənəvi irsə ehtiram, müxtəlif mədəniyyətlərin dialoq və əməkdaşlığı dövlət səviyyəsində dəstəklənir. Milli, etnik və dini müxtəliflik ölkəmizin milli sərvəti kimi dəyərləndirilir. "Bu, bizim qürur mənbəyimizdir. Azərbaycanda elan olunmuş "Multikulturalizm İli" və "İslam Həmrəyliyi İli" ümumbəşəri əhəmiyyətli dəyərlərə verdiyimiz önəmin bariz nümunəsidir. Azərbaycanın bu örnək modelinin təməli Ümummilli Liderimiz Heydər Əliyevin müdrik zəkasının məhsulu olan azərbaycançılıq məfkurəsi ilə qoyulub və bu gün Prezident İlham Əliyevin qlobal səyləri sayəsində inkişaf edir, dünyaya təqdim olunur", - deyə QMİ sədri vurğulayıb.

Qeyd edilib ki, dünyada dini və milli zəmində ekstremizm, ksenofobiya, islamofobiya, antisemitizm, radikalizm təzahürlərinin artdığı, miqrant böhranının yaşandığı müasir dövrdə Azərbaycan Prezidenti multikulturalizm və dini həmrəylik ideyalarını fəal təbliğ və təşviq etməklə insani həmrəylik, humanizm ideallarının bərqərar olmasına öz töhfəsini verir. Bu gün Azərbaycan öz üzərinə tarixi missiya götürərək müxtəlif beynəlxalq forumlara, qlobal hərəkata çevrilmiş "Bakı Prosesi"nə rəhbərlik edir. Bakı Dinlərarası və Sivilizasiyalararası Beynəlxalq Əməkdaşlıq Mərkəzinin Qafqaz Müsəlmanları İdarəsinin nəzdində yaradılması da bu ənənənin davamı kimi dəyərləndirilməlidir.



Allahşükür Paşazadə vurğulayıb ki, Prezident İlham Əliyevin müdrik dövlətçilik siyasəti sayəsində Azərbaycan Cənubi Qafqazın lider dövlətinə çevrilib. "Biz fəxr edirik ki, Azərbaycan beynəlxalq müstəvidə təkcə enerji layihələri ilə deyil, həm də mədəniyyətləri, dinləri bir araya gətirən qabaqcıl bir ölkə kimi tanınır. Bu yaxınlarda Almaniya Kansleri xanım Angela Merkelin Azərbaycanı ziyarət etməsi Almaniya-Azərbaycan əlaqələrinin dərinləşməsi baxımından əhəmiyyətli hadisə oldu. Tolerantlıq ənənələrimizin, mədəni-mənəvi irsimizin təbliğində müstəsna xidmətləri olan Heydər Əliyev Fondunun xəttilə Almaniyada Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş mötəbər tədbirin əhəmiyyətini xüsusi vurğulamaq istərdim. Yeri gəlmişkən qeyd edim ki, Azərbaycanda 200 ildir alman icmaları mövcuddur və onlar bizim multikultural cəmiyyətimizin ayrılmaz hissəsidirlər.



Biz din xadimləri dünyada sülhün, əmin-amanlığın və insan həyatının qorunması yolunda öz səylərimizi əsirgəmirik. Dünyanın bir çox ölkələrində, o cümlədən Böyük Britaniya, İsveç, Finlandiya, İspaniya, Almaniyada keçirdiyimiz beynəlxalq forumların ümumi məramı dünyamızda sülhün, əmin-amanlığın qorunub saxlanılması, insan həmrəyliyinə nail olunmasıdır", - deyə A.Paşazadə qeyd edib.

Bildirilib ki, insan qırğını, maddi və qeyri-maddi mədəni irsin məhvi ilə müşayiət olunan bütün münaqişələr, o cümlədən Fələstin, Suriya, Əfqanıstan, Yəmən, Liviyadakı mövcud vəziyyət humanitar fəlakətlərə aparır. Əsrimizin daha bir bəlası - müharibələrin yaratdığı məcburi miqrant axınıdır. Onlara qarşı antihumanist, irqçi, aqressiv münasibət yolverilməzdir. Belə hallar sivilizasiyalar arasında qütbləşməni dərinləşdirir, terrorizmə, radikalizmə və ekstremizmə təkan verir.

davamı səh. 3

əvvəli səh. 2

İctimaiyyəti narahat edən hadisələr, həmçinin dini və milli zəmində terror aktlarının dövlətlərin təhlükəsizliyinə və insan hüquqlarına ağır zərbə olduğunu söyləyən Allahşükür Paşazadə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən də ətraflı bəhs edib. Ermənistan silahlı qüvvələri tərəfindən törədilən Xocalı soyqırımı barədə də danışan QMİ sədri bildirib ki, münaqişə nəticəsində bir milyondan çox soydaşımız qaçqın və məcburi köçkünə çevrilib, zəbt olunmuş ərazilərimizdə məscid, kilsə, sinaqoq və qəbiristanlıqlar məhv edilib.

Prezident Administrasiyasının millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov tədbirdə çıxış edərək diqqətə çatdırıb ki, Azərbaycan dünyada multikulturalizmin dövlət siyasəti olduğu azsaylı ölkələrdən biridir. Dövlət bu siyasətin həyata keçirilməsində, onun prinsiplərinə riayət olunmasında, tolerantlıq və qeyri-ayrı-seçkilik siyasətinin həyata keçirilməsində aparıcı rol oynayır. Azərbaycan dövləti cəmiyyətdə dağıdıcı meyillərin qarşısını almaq məqsədi ilə multikulturalizm siyasətinin ölkənin suverenliyinə, ərazi bütövlüyünə, demokratik inkişafına və onun milli təhlükəsizliyinə xidmət etməsi üçün əlindən gələni əsirgəmir.



Etibar Nəcəfov bildirib ki, demokratik inkişaf yolunu seçmiş, multikultural mühiti və tolerantlığı ilə tanınan Azərbaycan üçün dini etiqad azadlığı ölkənin daxili siyasətinin prioritet istiqamətlərindən biridir. Azərbaycan hökuməti ölkə vətəndaşlarının dini etiqad azadlığına onların hüquq və azadlıqlarının ayrılmaz bir hissəsi kimi yanaşır. Azərbaycan Respublikasının Konstitusiyası, "Dini etiqad azadlığı haqqında" Qanun və digər sənədlər Azərbaycan vətəndaşlarının dini etiqad azadlığının hüquqi əsasları kimi çıxış edirlər.

Bütün dinlərin, dini icmaların qanun qarşısında bərabər olduğunu söyləyən şöbə müdiri deyib: "Buraya Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin dövlət qeydiyyatından keçən dini qurumları aid edilir. Dövlət Komitəsinin verdiyi məlumata görə, 2009-cu ildən bəri Komitə tərəfindən 861 dini qurum dövlət qeydiyyatından keçib. Onlardan 830-u müsəlman, 31-i qeyri-müsəlman təşkilatlarıdır. 31 qeyri-müsəlman təşkilatından 20-si xristian, 8-i yəhudi, 2-si bəhayi, 1-i isə krişna şüuru dini icmasıdır. Dövlət dini icmaların fəaliyyətinə bütün zəruri dəstəyi verir. Onlara maliyyə yardımı ayırır. Xüsusilə dövlət məscidlərin, sinaqoqların və kilsələrin bərpası və yenidən qurulması üçün onlara maddi yardım göstərir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, Azərbaycan hər zaman müxtəlif dini etiqadların daşıyıcılarının sülh şəraitində, bir-biri ilə qarşılıqlı hörmət və ehtiram ruhunda yaşadığı ölkələrdən biri olub. Azərbaycan xalqına xas olan tolerantlıq dəyərləri ölkəmizdə bu günə qədər sülh şəraitində birgəyaşayışın və mədəni müxtəlifliyin qorunub saxlanılmasında müstəsna rol oynayıb. "Nəticədə, Azərbaycan tarixən sivilizasiyalararası dialoqa önəmli töhfələr verən və dözümsüzlüyün bütün formalarını rədd edən dəyərlər məkanı kimi öz mövqeyini saxlamağa müvəffəq olub", - deyə Komitə sədri vurğulayıb.

Azərbaycanda dövlət-din münasibətlərinin uğurundan danışan Mübariz Qurbanlı qeyd edib ki, ölkəmizdə dini məsələlərlə bağlı düzgün siyasət aparılır. Müstəqil Azərbaycan dövlətinin qurucusu olan ulu öndər Heydər Əliyevin müdrik siyasəti nəticəsində ölkəmizdə dövlət-din münasibətləri beynəlxalq hüququn normalarına uyğun olaraq tənzimlənib, eləcə də icmalar arasında tolerantlıq mühitinin qorunub saxlanılması üçün hüquqi baza yaradılıb.

Azərbaycanda dövlət-din münasibətlərinin modeli zamanın tələblərinə uyğun olaraq Prezident İlham Əliyev tərəfindən daha da inkişaf etdirilib.

Bu gün ölkəmizin tolerantlıq və multikulturalizm modelinin dünyada yüksək qiymətləndirildiyini qeyd edən Komitə sədri deyib: "Tarixi-mədəniyyət abidələrinin, məscidlərin və ziyarətgahların, yəhudi və xristian məbədlərinin yenidən qurulması və bərpası Azərbaycanın dinlərə qarşı mövqeyinin, ölkəmizdəki dini-mənəvi şəraitin göstəricisidir. Ölkəmizdə hazırda 2250 məscid, 14 kilsə, 7 sinaqoq fəaliyyət göstərir".

Azərbaycanın həm etnik, həm dini, həm məzhəb baxımından zəngin ölkə olduğunu söyləyən Azərbaycanın Almaniyadakı səfiri Ramin Həsənov bildirib ki, tarixboyu fərqli dini və etnik icmaların nümayəndələri Azərbaycan xalqı ilə bərabər yaşayıb. Bu gün multikulturalizmin Azərbaycan modeli ifadəsi siyasi leksikonumuza daxil olub.

Dövlət-din münasibətlərinin ədalətli şəkildə tənzimlənməsinin Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu qeyd edən səfir deyib: "Ümummilli Lider Azərbaycanı multikulturalizmin dövlət siyasətinin mühüm hissəsi olan nadir ölkələrdən biri səviyyəsinə gətirib çıxarıb. Bu gün bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir".

"Heç kəs dini etiqadına görə təhdid oluna bilməz. Biz insanları və fərqliliyi sevməliyik. Bu, dünyada sülhün bərqərar olmasının əsasını təşkil edir. Biz həmişə şərə qarşı mübarizə aparmalıyıq. Şər dünyamızda yayılmamalıdır",- deyən ISESCO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tuveycri bildirib ki, müharibələr, ksenofobiya, islamofobiya bugünkü dünyamızın reallığıdır. O, bütün münaqişələrin, ziddiyyətlərin dialoq və müzakirələr aparmaqla həll oluna biləcəyini qeyd edərək deyib: "Dialoq həmişə müdriklərin seçimi olub. Biz vahid amal uğrunda çalışmalı, sülh yolu ilə getməliyik. Sülhü, əmin-amanlığı təbliğ etməli və möhkəmləndirməliyik".

Almaniya Hökumətinin dini azadlıqlar üzrə müvəkkili Markus Qrubel təəssüflə bildirib ki, bu gün dünyanın bir çox ölkələrində mədəni müxtəliflik, ifadə azadlığı yalnız sənədlərdə yer alır, cəmiyyətə nüfuz etmir. Almaniyada da dini və irqi ayrı-seçkiliyə cəhdlər göstərilir. Biz isə buna qarşı gücümüzü səfərbər etmişik. Azərbaycan əhalisinin böyük əksəriyyətini müsəlmanlar təşkil etsə də, burada heç vaxt dini münaqişələrə rast gəlinməyib. Azərbaycanda hələ 1918-ci ildə qadınlara seçki hüququ verilib. Azərbaycan Konstitusiyası ilə dini azadlıqlar tam təsbit olunur. Bu amil region və dünya ölkələri üçün böyük nümunədir.

İƏT İslam tarix, incəsənət və mədəniyyət araşdırmalar mərkəzinin (IRCICA) baş direktoru Xalid Eren tədbirin Azərbaycanın təşəbbüsü ilə reallaşdığını xüsusi vurğulayıb. 2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan olunduğunu xatırladan Xalid Eren deyib: "Bu gün dünyada islamofobiya, ksenofobiya meyilləri durmadan artır. Biz multikulturalizm ideyasının istənilən dövlətin siyasətində əsas yeri tutmasını istəyirik".

İskəndəriyyə və bütün Afrika Papası və Patriarxı II Teodoros konfransın əhəmiyyətindən bəhs edərək bu cür konfransların mədəniyyətlərarası, sivilizasiyalararası dialoqun təşviqi baxımından önəmini vurğulayıb. O deyib: "Biz çalışırıq ki, fəaliyyətimizi dünyada mövcud olan çağırışlara uyğun quraq. Mədəniyyətlərarası dialoq işimizin təməlini təşkil edir. Bu dialoq hazırkı dövrdə xüsusilə vacibdir. Dini ayrı-seçkilik bütün bəşəriyyət üçün əsas təhlükədir".

Tunisin sabiq Prezidenti Məhəmməd Monsef Marzuki hazırda dünyada dini ekstremizmin çox geniş yayıldığını qeyd edib. Bildirib ki, hər bir insan bütün bəşəriyyətin vacib və ayrılmaz hissəsidir. Ona görə də insanların kütləvi qırğınlarına, müharibələrə son qoyulmalıdır. Mövcud ziddiyyətlər yalnız qarşılıqlı dialoqlar, müzakirələrlə həll edilməlidir.



Almaniya-Azərbaycan Forumunun idarə heyətinin sədri Hans Eberhard Şlayer təmsil etdiyi forumun ölkələrimiz arasında əlaqələrin genişləndirilməsinə xidmət etdiyini bildirib. Qeyd edib ki, hazırda dünyada aclıq, təcavüz, miqrasiya kimi iqtisadi və sosial problemlər mövcuddur. Bu məsələlərin həlli üçün isə dialoq və qarşılıqlı əməkdaşlıq tələb olunur. Buraya müxtəlif dinlərin nümayəndələrinin, ictimai xadimlərin dialoqu daxildir.

Bundestaqın üzvü, Şərq tərəfdaşlığı üzrə məruzəçi Nikolas Löbel bu il Birinci Dünya müharibəsinin bitməsinin 100 illiyinin qeyd edildiyini xatırladıb. Bildirib ki, dünya müharibələri siyasətin zəifliyi idi. Müharibələrin səbəbi dini, irqi, ictimai fərqlərin qabardılması idi. Belə faciələrin bir daha yaşanmaması üçün bizə dialoq lazımdır. Din cəmiyyətin birləşməsində vacib rol oynayır.

Azərbaycanın Almaniya üçün Cənubi Qafqaz regionunda vacib tərəfdaşlardan biri olduğunu qeyd edən Nikolas Löbel deyib ki, Azərbaycan Şərqlə Qərbin qovuşuğunda yerləşən bir pəncərədir. Azərbaycan gənc, güclü və demokratik prinsipləri olan ölkədir.

Konfrans Prezident Administrasiyasının millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfovun və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının moderatorluqları ilə panel iclaslarla işini davam etdirib.

Sonda konfransın yekun bəyannaməsi imzalanıb. Bəyannamədə deyilir ki, konfrans iştirakçıları dövlətləri, BMT və digər beynəlxalq və regional təşkilatları, eləcə də dini liderləri mədəniyyətlər və dinlərarası dialoqun və qarşılıqlı anlaşmanın təşviq olunmasının davam etdirilməsinə və bu sahədə əməkdaşlığın genişləndirilməsinə, milli, dini və etnik zəmində zorakılıq hallarına rəvac verən və zərərli ideologiyalara əsaslanan təbliğatın qarşısının alınmasında əməkdaşlığın artırılmasına, geniş dialoqun davam etdirilməsinə və maarifçiliyin gücləndirilməsinə çağırırlar. Həmçinin siyasi motivlər daşıyan və məqsədyönlü qızışdırılan ksenofobiya, antisemitizm və islamofobiyanın, habelə dinin adından sui-istifadə etməklə terrorizmin və insanlıq əleyhinə cinayətlərin törədilməsinin qarşısının alınması üçün təsirli tədbirlər görməyə, Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə və beynəlxalq hüququn hamılıqla tanınmış prinsip və normalarına, xüsusilə dövlətlərin suveren bərabərliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı prinsiplərinə sadiqliklərini təsdiq etməklə dünyanın bir çox bölgələrində, o cümlədən Yaxın Şərqdə, Fələstində, Suriyada davam edən münaqişələrin, eləcə də Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tezliklə həll olunmasına töhfə verməyə, Birləşmiş Millətlər Təşkilatının mərkəzi əlaqələndirici rolu vasitəsilə beynəlxalq sabitlik və təhlükəsizliyə qarşı olan çağırış və təhdidlərlə mübarizə, o cümlədən münaqişələrin yaranmasının, qaçqın, məcburi köçkünlərin və miqrantların axınına səbəb olan terrorizmin, aqressiv separatizmin, ekstremizmin qarşısının alınması sahəsində səmərəli fəaliyyətin aparılması üçün səylərin birləşdirilməsinə səsləyirlər.

Konfrans çərçivəsində "Bəşəri çağırış" filmi nümayiş etdirilib.

# Azərbaycanın öz multikultural və dini tolerantlıq dəyərlərini dünya ölkələri ilə bölüşmək niyyəti yüksək qiymətləndirilib



Almaniyaya səfərdə olmuş Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadənin rəhbərlik etdiyi nümayəndə heyəti Berlində bir sıra görüşlər keçirib.

Nümayəndə heyəti əvvəlcə Almaniya Xarici İşlər Nazirliyinin xarici elm, təhsil, tədqiqat və mədəniyyət siyasəti üzrə müvəkkili, səfir Haydrun Tempel, din məsələləri üzrə müvəkkili, səfir Folker Berreshaym və Cənubi Qafqaz və Mərkəzi Asiya şöbəsinin diplomatı Aksel Bayerlə görüşüb.

Daha sonra Almaniya Bundestaqında xarici siyasət komitəsinin üzvü, hakim Xristian-Demokratlar/Xristian-Sosialist İttifaqı fraksiyasının Şərq Tərəfdaşlığı üzrə məruzəçisi Nikolas Löbellə görüş keçirilib.

Görüşlərdə Azərbaycanın öz multikultural və dini tolerantlıq dəyərlərini, eləcə də mədəniyyətlər və dinlər arasında əməkdaşlıq təcrübəsini dünya ölkələri ilə bölüşmək niyyəti və bu məqsədlə beynəlxalq tədbirlər həyata keçirməsi yüksək qiymətləndirilib. Bu xüsusda, Berlində keçirilmiş "Dinlər və mədəniyyətlərarası əməkdaşlıqdan dialoqa doğru" konfransının uğurlu təşkil edildiyi, Almaniya və digər dünya ölkələrinin dini icmalarının, eləcə də siyasi, elmi və mədəni dairələrinin orada yüksək səviyyədə təmsil olunduqları bildirilib. Dövlətimizin başçısı İlham Əliyevin dəstəyi ilə həyata keçirilən beynəlxalq tədbirlərin insanların multikulturalizm və tolerantlıq ruhunda maarifləndirilməsinə, dünyada sülhün və əməkdaşlığın təşviqinə mühüm töhfə verdiyi vurğulanıb və bu qəbildən olan tədbirlərin davamlı surətdə keçirilməsinin əhəmiyyəti qeyd olunub.

Allahşükür Paşazadə multikulturalizm və dini tolerantlığın Azərbaycan xalqının milli ruhundan irəli gəlməklə yanaşı, həm də dövlət siyasəti olduğunu deyib. O qeyd edib ki, ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu müasir müstəqil Azərbaycanın bugünkü daxili və xarici siyasətində bu dəyərlərin təşviqi, ölkəmizin etnik, dini və mədəni müxtəlifliyinin qorunub saxlanılması, eləcə də müxtəlif mədəniyyətlər və dinlər arasında körpülərin yaradılması xüsusi yer tutur. Şeyxülislam Azərbaycanın bu səylərini yüksək qiymətləndirdiyinə və dəstəklədiyinə görə Almaniya tərəfinə təşəkkür edib.

Görüşdə Azərbaycan nümayəndə heyəti, həmçinin dünyada vicdan azadlığının təmin olunması, dini radikalizmlə və ksenofobiya ilə mübarizə aparılması kimi mövzuları müzakirə edib, ölkəmizin bu sahələrdəki təcrübəsi və nailiyyətləri barədə məlumat verib. Eyni zamanda, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə fikir mübadiləsi aparılıb, torpaqlarımızın 25 ildən artıqdır ki, Ermənistanın işğalı altında olmasına baxmayaraq, ölkəmizin bu münaqişənin sülh yolu ilə həllinə çalışdığı vurğulanıb.

Azərbaycan nümayəndə heyətinə Prezident Administrasiyanın Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və Milli Məclisin deputatı Cavanşir Paşazadə daxil olub. Nümayəndə heyətini ölkəmizin Almaniyadakı səfiri Ramin Həsənov müşayiət edib.

# Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində "Vəhdət" filminin ilk nümayişi olub

Noyabrın 29-da Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində (BBMM) Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sifarişi ilə hazırlanmış "Vəhdət" sənədli filminin ilk nümayişi olub.

BBMM-in icraçı direktor əvəzi Rəvan Həsənov filmin əhəmiyyətindən söz açıb. "Biz xarici ölkələrdə olanda və xarici nümayəndələr ölkəmizə gələndə Azərbaycanın multikulturalizm dəyərləri haqqında məlumatlar veririk. Həmin məlumatların ən mühümlərindən biri də Azərbaycanda müxtəlif dinlərə və məzhəblərə məxsus insanların dinc şəraitdə yaşamaları, xüsusilə sünni və şiələrin bir yerdə vəhdət namazı qılmalarıdır. Vəhdət namazının Ulu Öndər Heydər Əliyevin adını daşıyan Heydər məscidində icra olunması xüsusi əlamətdir. Çünki Ulu Öndər Azərbaycanda multikulturalizmin siyasi əsaslarının banisidir. O, Azərbaycanda dövlət-din münasibətlərini və dinlərarası harmoniyanı ən yüksək səviyyəyə çatdıran tarixi şəxsiyyətdir. Bu siyasət hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir", - deyə R.Həsənov bildirib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib ki, İslamda vəhdətə nail olmaq istiqamətində zaman-zaman müəyyən addımlar atılıb. İslamda vəhdət, ittihad kimi çağırışların olduğunu deyən Komitə sədri söyləyib ki, bu məsələ hələ də aktuallığını saxlamaqdadır. Azərbaycanda da müsəlman ölkəsi olaraq bu istiqamətdə addımlar atılıb. Ölkəmizin dövlət-din modelində vəhdət siyasəti əhəmiyyətli yerlərdən birini tutur. Ölkəmizdə vəhdət namazları qılınır. Qafqaz Müsəlmanları İdarəsi də vəhdət namazının daha geniş şəkildə icra edilməsi istiqamətində imamlara və məscidlərdə çalışan din xadimlərinə tövsiyələrini verir.

Diqqətə çatdırılıb ki, bu günlərdə İslam dünyasında vəhdət həftəsi keçirilib. "Vəhdət" filmi Azərbaycanda İslama aid olan ayrı-ayrı məzhəblər, təriqətlər arasında birliyə, əməkdaşlığa çağırır. Filmin məsləhətçiləri DQİDK-nın sədr müavinləri, mütəxəssislərdir. Bu filmin geniş şəkildə yayılması, televiziya vasitəsilə göstərilməsi Azərbaycanda dini maarifləndirmə işinə öz töhfəsini verəcək.



Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu deyib ki, "Vəhdət" filmində uzun əsrlərdir İslam dünyasının üzləşdiyi mürəkkəb problem göstərilir. Bu mürəkkəb şərtlər içərisində bir suala cavab axtarılır: vəhdət mümkündürmü? Azərbaycanda mümkündür. Filmdə Azərbaycanda vəhdətin tarixi, siyasi, mədəni əsasları göstərilir. Azərbaycan təkcə məzhəblərin vəhdət içində yaşadığı bir ölkə deyil, eyni zamanda dinlərin vəhdət içində yaşadığı bir ölkədir.

Milli Məclisin deputatı, Azərbaycan rus icmasının sədri Mixail Zabelin "Vəhdət" filmini yüksək qiymətləndirib. Bildirib ki, bu film digər müsəlman ölkələrində nümayiş olunsa, qarşıdurmaların sayı da azalar. Azərbaycanda heç vaxt məzhəblərarası, başqa dinlərin nümayəndələri arasında qarşıdurmalar olmayıb. Ölkəmizdə hər zaman multikultural mühit hökm sürüb. Azərbaycanı nümunə göstərərək dünyaya nümayiş etdirmək olar ki, həm sünnilər, həm şiələr sülh şəraitində yaşaya bilərlər.

Prezident Administrasiyasının millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin məsləhətçisi Ülviyyə Abbasova vurğulayıb ki, dini radikalizmlə mübarizə yollarından biri də maarifləndirmədir və bu istiqamətdə vacib işlər görülür. DQİDK-nın bu istiqamətdə gördüyü işlər təqdirəlayiqdir. Komitə maarifləndirici kitablar çap etdirir, insanları tolerantlığa çağıran, zorakılığın zərərlərini göstərən filmlər çəkdirir. "Vəhdət" filmi də bunlardan biridir.

Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Fuad Nurullayev, Bakı şəhəri Dağ yəhudiləri dini icmasının rəhbəri Milix Yevdayev, İranın Azərbaycandakı səfirliyinin Mədəniyyət Mərkəzinin sədri Əsgər Farsi, İlahiyyat İnstitutunun rektoru Ceyhun Məmmədov və digərləri DQİDK-nın sifarişi ilə hazırlanmış "Vəhdət" sənədli filminin əhəmiyyətini qeyd ediblər. Bildirilib ki, film Azərbaycandakı məzhəblərarası birliyi və qardaşlığı tərənnüm edir. Bir çox ölkələrdə məzhəblərarası gərginlik müxtəlif rəqəmlərlə göstərildiyi halda, Azərbaycanda belə gərginlik yox dərəcəsindədir.

# İmişlidə "Azərbaycanın dövlət-din modeli: əsas istiqamətlər" mövzusunda regional konfrans keçirilib



Noyabrın 27-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və İmişli Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "Azərbaycanın dövlət-din modeli: əsas istiqamətlər" mövzusunda ikigünlük regional konfrans keçirilib.

Konfransda DQİDK-nın və İmişli RİH-in rəhbər işçiləri, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) nümayəndələri, yerli hüquq-mühafizə orqanlarının rəhbərləri, ictimaiyyət fəalları, həmçinin dini icma sədrləri, din xadimləri və ilahiyyatçılar iştirak edirlər.

Tədbirdə dövlət-din münasibətləri sahəsindəki siyasətin əsas istiqamətləri, multikultural dəyərlərin qorunması, eyni zamanda tolerantlıq mühitinin, milli-mənəvi dəyərlərə bağlılığın gücləndirilməsi barədə müzakirələr aparılıb.

İmişli RİH-in başçısı Vilyam Hacıyev çıxış edərək, son illər ölkəmizin bütün bölgələrində olduğu kimi, İmişlidə də dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği istiqamətində görülən işlərdən danışıb. Vilyam Hacıyev bildirib ki, Azərbaycanda Ulu Öndər Heydər Əliyevin siyasəti nəticəsində xalqın keçmişinə, adət-ənənələrinə, dininə dövlət səviyyəsində qayğı göstərilməyə başlanılıb, etiqad, inanc azadlığı bərqərar olub. O, ölkəmizin dinlərarası dialoq və əməkdaşlıq sahəsindəki təcrübəsinin bütün dünyada məqbul bir model kimi yüksək qiymətləndirildiyini söyləyib.

DQİDK-nın sədri Mübariz Qurbanlı isə ölkəmizdə dövlət-din münasibətlərinin tənzimlənməsi, dini sahədə sabitliyə nail olunması istiqamətində görülən işlərdən danışaraq, konfessiyalar arasında dözümlülük mühitinin dövlət səviyyəsində qorunub saxlanılmasının Ümummilli Liderin adı ilə bağlı olduğunu bildirib. Vurğulayıb ki, Ulu Öndərin dövlət-din münasibətləri sahəsindəki nümunəvi siyasəti onun layiqli siyasi varisi Prezident İlham Əliyev tərəfindən uğurla reallaşdırılır. Azərbaycandakı dini dözümlülük və tolerantlıq dinə münasibətdə dövlət siyasəti kimi səciyyələndirilir.

Mübariz Qurbanlı gənc nəslin milli ruhda tərbiyə edilməsinin vacibliyinə də toxunub. O bu sahədə dövrün tələblərinə uyğun islahatların aparılmasının, savadlı milli kadrların hazırlanmasının və milli-mənəvi dəyərlərimizin təbliğ və təşviq edilməsinin dövlət-din münasibətlərinin tənzimlənməsi işinə müsbət nəticələr verəcəyini qeyd edib.

Çıxışında dinin siyasiləşdirilməsi cəhdləri barədə də danışan Dövlət Komitəsinin sədri dünyanın bir çox ölkələrində din amilindən istifadənin vətəndaş müharibələrinə, terror hadisələrinə, eyni dinə etiqad edən insanlar arasında qarşılıqlı nifrətə gətirib çıxardığını deyib. O, DQİDK-nın milli maraqlarımıza zidd olan yad dini ideologiyaların yayılmasının, eləcə də dini təəssübkeşliyin dini təkəbbürə, sonra fanatizm və ekstremizmə çevrilməsinin qarşısının alınmasında qabaqlayıcı amil kimi mütəmadi olaraq maarifləndirmə tədbirləri təşkil etdiyini vurğulayıb.



Sonda çıxış edən QMİ-nin səlahiyyətli nümayəndəsi Adıgözəl Başirov dövlətin dinə və din xadimlərinə qayğısından bəhs edib, diqqət və qayğıya görə bölgə dindarları adından Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

***Regional konfrans növbəti gün "Dini radikalizmlə mübarizə və maarifləndirmə" mövzusundakı panellə öz işini davam etdirib.***

Müəllimlər, gənclər və digər ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbiri giriş sözü ilə açan RİH başçısının müavini Təranə Cabbarova Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycandakı dini dözümlülük və tolerantlığın dinə münasibətdə dövlət siyasəti kimi səciyyələndirildiyini bildirib. O, eyni zamanda ölkəmizin dinlərarası dialoq və əməkdaşlıq sahəsindəki təcrübəsinin bütün dünyada yüksək qiymətləndirildiyini vurğulayıb.

Daha sonra çıxış edən DQİDK-nın sədr müavini Gündüz İsmayılov bildirib ki, bu gün Azərbaycan özünün uzun əsrlərin süzgəcindən süzülüb gələn zəngin multikulturalizm modelini dünyaya təqdim etməkdədir. Qeyd edib ki, Azərbaycanın bu sahədəki təcrübəsi kifayət qədərdir və qədim tarixə malikdir. Onun sözlərinə görə, ölkəmizdə kilsə, sinaqoq və məscidlər azad, sərbəst, təhlükəsiz, qarşılıqlı hörmət əsasında, tolerantlıq şəraitində fəaliyyət göstərirlər. Təbii ki, belə bir mühit dövlətin apardığı siyasət və xalqın unikal daxili birgəyaşayış mədəniyyətini həyat tərzinə çevirməsi nəticəsində formalaşıb. G.İsmayılov deyib ki, tarixən müxtəlif etno-mədəni qrupların və dini konfessiyaların birgə yaşadığı ölkəmizdə multikulturalizm siyasətinin banisi Ümummilli Lider Heydər Əliyevdir. DQİDK sədrinin müavini bildirib ki, Ulu Öndərin həyata keçirdiyi bu siyasət Prezident İlham Əliyev tərəfindən bu gün uğurla davam etdirilir: "Bir sözlə, multikultural və tolerant dəyərlər Azərbaycanın mənəvi sərvətidir. Hazırda Azərbaycan dünyada bu dəyərlərin ən böyük ixracatçısına çevrilib".

Dini maarifləndirmə tədbirlərinin əhəmiyyətinə də toxunan G.İsmayılov vurğulayıb ki, cəmiyyətdə sağlam dini maarifçiliyə böyük ehtiyac duyulur. Odur ki, cəmiyyətin bütün təbəqələri, o cümlədən gənclər milli-mənəvi dəyərlərimizin təbliği, radikalizmlə mübarizə və dini maairfləndirmə işində daha fəal olmalıdırlar.

İmişli rayon Təhsil Şöbəsinin əməkdaşı Sevdimalı Hüseynov gənclərin dini radikalizmin təsirlərindən uzaq olmaları üçün keçirilən dini maarifləndirmə tədbirlərinin əhəmiyyətindən bəhs edib. Qeyd edib ki, gənclərin elmə, təhsilə yiyələnmələri daim diqqətdə saxlanılmalı, dini bilgilər onlara düzgün çatdırılmalıdır. Bildirib ki, bu işdə məktəb müəllimlərinin üzərinə böyük məsuliyyət düşür.

Tədbir iştirakçıların suallarının cavablandırılması ilə yekunlaşıb.

# Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri İmişlidə vətəndaşları qəbul edib

Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların müraciət və təkliflərinin, ərizə və şikayətlərinin həlli üçün operativ tədbirlər görürlər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı noyabrın 27-də İmişlidə Sabirabad, Saatlı, İmişli, Beyləqan və Xocavənd rayonlarının sakinlərini qəbul edib.

Qəbuldan əvvəl Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və İmişli Rayon İcra Hakimiyyətinin başçısı Vilyam Hacıyev Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək xatirəsini ehtiramla anıblar.

İmişlidəki Heydər Əliyev Mərkəzində keçirilən qəbulda vətəndaşlar, əsasən, dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, dini icmaların zəruri dini ədəbiyyatlarla təmin edilməsi, məscidlərin təmiri və digər məsələlərə bağlı müraciət ediblər.

Müraciətlərin bir qismi yerindəcə öz həllini tapıb. Araşdırılmasına ehtiyac olan məsələlərin qanunvericiliyə uyğun, operativ həlli üçün müvafiq tapşırıqlar verilib.



# İlham Əliyevin mükəmməl “multikulturalizm və tolerantlıq modeli”

## Azərbaycanın bu sahədəki təcrübəsi qlobal miqyasda təkmil nümunə kimi qəbul edilir

Son illər Azərbaycanda həyata keçirilən sosial-iqtisadi islahatlar, dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi altında həm regionda, həm də beynəlxalq miqyasda əldə etdiyimiz uğurlar hər sahəyə olduğu kimi, ictimai-siyasi və sosial həyatla birbaşa əlaqəsi olan din sahəsinə də müsbət təsirini göstərməkdədir.

Bu gün hər bir Azərbaycan vətəndaşı Konstitusiyanın, "Dini etiqad azadlığı haqqında" qanunun ona verdiyi imkanlardan istifadə edərək etiqad azadlığını tam yaşaya bilir.

Ölkədə fəaliyyət göstərən konfessiyalar arasında nəinki hər hansı qarşıdurma müşahidə olunmur, əksinə, onlar arasındakı münasibətlər artıq birgə əməkdaşlıq mərhələsindən yeni dövrə - qarşılıqlı yardımlaşma, empatiya mərhələsinə keçmişdir. Biz bunu hər hansı dini konfessiyanın ibadət evi inşa edərkən digər konfessiyaların ona dəstək verməsində və yardım göstərməsində əyani şəkildə görə bilərik.

Məsələn, 2003-cü ildə Bakıda Avropa yəhudiləri üçün sinaqoq tikilərkən ölkədəki digər dini konfessiyalar həm mənəvi, həm də maddi dəstək göstərmişdilər. Yaxud Bakıda katolik kilsəsi inşa edilərkən Qafqaz Müsəlmanları İdarəsi, Dağ və Avropa yəhudiləri, eləcə də pravoslav kilsəsi bir araya gələrək vəsait toplamış və inşaat işinə maddi yardım etmişdilər. Əlbəttə, belə unikal faktlar bu gün dünyanın bir çox ölkəsində müşahidə etdiyimiz vəziyyətin - nəinki fərqli dinlərin mənsublarının, hətta eyni dinin müxtəlif məzhəblərinin nümayəndələrinin bir-birinə az qala düşmən gözü ilə baxması fonunda olduqca ürəkaçan və qürurvericidir. Şübhəsiz, bu gün müasir Azərbaycan ərazisində yaşayan çoxsaylı etnik və dini qruplar arasında möhkəm dostluq və qardaşlıq əlaqələrinin, başqa sözlə, multikulturallığın ən ideal modelinin formalaşmasında onların ortaq taleyə sahib olmaları da mühüm rol oynamışdır. Tarix boyu bu torpaqlarda məskunlaşmış müxtəlif xalqların və etnik qrupların nümayəndələri qüdrətli dövlətlərdən asılı vəziyyətə düşmüş, dini-mədəni baxışlarındakı fərqlərə baxmayaraq, mövcud şərait onları bir-birinə daha da yaxınlaşdırmışdır.

### *Sağlam genetika və möhkəm siyasi iradə*

Müasir Azərbaycanda tolerantlıq hər ötən gün daha da möhkəmlənən, təkcə cəmiyyətdə deyil, hər bir vətəndaşın şüurunda, mövqeyində, münasibətində və həyat tərzində öz əksini tapan dəyərə çevrilmişdir. Bunun əsas səbəblərindən biri milliyyətindən, dinindən, dilindən, irqindən asılı olmayaraq bütün vətəndaşların hüquq və azadlıqlarının bərabərliyini təmin edən milli siyasətin əsas müddəalarının Azərbaycan Konstitusiyasında, "Dini etiqad azadlığı haqqında" qanunda təsbit olunmasıdır. Respublikamızda tolerantlıq, dini dözümlülük kimi ali dəyərləri möhkəmləndirmək məqsədilə insan hüquq və azadlıqları, o cümlədən vicdan və dini etiqad azadlığı ilə bağlı qanunvericilik bazası beynəlxalq hüquq normalarına uyğunlaşdırılmışdır.

Eyni zamanda, müxtəlif etnik qrupların öz dillərini, mədəni dəyərlərini qoruyub saxlamaları, dini inanclarını rahat şəkildə yerinə yetirə bilmələri üçün dövlət tərəfindən lazımi şərait yaradılması, milli azlıqların öz bayramlarını qeyd etməsi, hətta həmin günlərdə dövlət başçısından təbrik almaları, əhalinin böyük əksəriyyətinin müsəlmanlardan ibarət olsa da, dövlətimizin respublika ərazisində yaşayan bütün dinlərin nümayəndələrinə diqqət göstərməsi, onlara müsəlmanlarla bərabər hüquqlar verməsi bugünkü mənzərənin formalaşmasının əsas səbəblərindəndir. Bir sözlə, hər hansı xalqın tolerant düşüncəyə sahib olması onun keçmişi ilə nə qədər bağlıdırsa, qorunub saxlanılması ona rəhbərlik edən şəxslərin iradəsindən bir o qədər asılıdır. Bu mənada birmənalı şəkildə vurğulamaq olar ki, ölkəmizdə yaşayan milli azlıqların ədəbiyyat, mədəniyyət, dil, din, tarix və adət-ənənələrinin qorunub saxlanılması, inkişaf etdirilməsi işi ümummilli liderin şəxsi iradəsi və təşəbbüsü əsasında qanuni müstəviyə çıxmış, dövlət siyasətinin prioritet istiqamətinə çevrilmişdir. Ulu öndər deyirdi: "Biz Azərbaycan deyəndə onun sərvətini, onun gözəl təbiətini nəzərdə tuturuq. Lakin bütün bunlarla yanaşı, respublikanın ən başlıca sərvəti əsrlərdən bu torpaqda yaşayan, öz taleyini, öz həyatını bu torpağa bağlayan, müxtəlif millətlərdən olan, müxtəlif dinlərə etiqad edən adamlardır. Ölkə nə qədər çox xalqı birləşdirirsə, bir o qədər də zəngin olar".

### *Azərbaycançılıq: vahid, bölünməz Azərbaycanın yeganə düsturu*

Ulu öndərin formalaşdırdığı azərbaycançılıq ideologiyasının təməl sütunlarını da məhz bu yanaşma tərzi təşkil edir. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev müəllifi olduğu "Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə" kitabında qeyd edir ki, "ideologiya olaraq azərbaycançılıq mühüm funksional elementlərlə zəngindir və bunların da mahiyyəti ölkəni mənəvi və fiziki baxımdan zəiflətmək cəhdlərindən qorumaqdır. Bu ideologiya inzibati-ərazi quruluşuna görə unitar, siyasi quruluş və dövlət idarəçiliyinə görə hüquqi və demokratik dövlət kimi Azərbaycanın möhkəmlənməsinə və inkişafına yönəldilmişdir. "Azərbaycançılıq" xalqımızın çox əzəbəziyyətlə nail olduğu tarixi sərvətdir. O, real müstəqilliyə nail olmaq, vahid, bölünməz Azərbaycanı qoruyub saxlamaq və möhkəmləndirmək üçün vasitədir. Bu gün "azərbaycançılıq" milli həyatın, konfessiyaların harmoniyasının çoxəsrlik ənənəsi, ölkədə yaşayan bütün millətlərin və etnik qrupların qardaşlığı, qarşılıqlı əlaqəsi və təsirinin tarixi, onların ümumi taleyi və müstəqil Azərbaycan Respublikasının bütövlüyü uğrunda birgə mübarizəsinin tarixi təcrübəsidir. ...Azərbaycançılığın mahiyyəti müxtəlif xalqların, mədəniyyətlərin, ənənələrin, konfessiyaların vəhdətidir. O, ənənəvi mifləri və rəmzləri özündə birləşdirir, lakin bunlardan milli dövlətin simasında yeni fenomenlərin qorunması və əsaslandırılması üçün istifadə edir. Azərbaycançılığın gücü ondadır ki, o, xalqın milli-mədəni eyniyyətini həm müdafiə etməyi və həm də qoruyub saxlamağı bacaran dövlətlə insanların fərdi sosial-mədəni meyillərini üzvi şəkildə birləşdirməyə qadirdir. Şübhəsiz ki, öz birliyinə mənsubiyyət hissi həyatın özünə də məna və əhəmiyyət verir, qarşılıqlı məsuliyyət və qarşılıqlı əlaqə hissini möhkəmləndirir və beləliklə, tənhalıq və qəriblik hissini azaldır. Bu ideologiya Azərbaycanda vahid birlik, vahid sosium formalaşdırır".

Azərbaycançılıq məfkurəsinin dərk olunmasının əsasında Azərbaycan xalqının tarixi, mənəvi-əxlaqi, mədəni ənənələri zəminində birlik ideyasının durduğunu vurğulayan akademik bildirir ki, bu, nəinki indi, həm də uzaq gələcəkdə azərbaycanlıların təkcə bir yox, bir çox nəsillərinə xidmət edəcəkdir və müstəqillik, milli eyniyyət tezliklə həmin nəsillər üçün həyati, azadlığı dərk etməyin ayrılmaz atributlarına çevriləcəkdir.

Ömrünün 30 ildən artıq dövrünü doğma vətəni Azərbaycanın, xalqının rifahı üçün fəda etmiş ulu öndər Heydər Əliyev azərbaycançılıq məfkurəsi ilə cəmiyyətin bütün sahələrində olduğu kimi, dövlət-din münasibətlərinin tənzimlənməsində, dini-mənəvi dəyərlərinin qorunmasında, dini tolerantlığın möhkəmləndirilməsində müstəsna xidmətlər göstərməklə yanaşı, bu sahədə özündən sonra böyük siyasi və dövlətçilik təcrübəsini miras qoymuşdur. Dini dözümlülüyü, tolerantlığı daim dəstəkləyən ümummilli lider gənclərimizin bu ruhda tərbiyə olunmasının vacibliyini hər zaman vurğulayırdı. O bilirdi ki, yeniyetmə və gənclərimizin başqa dinlərə qarşı dözümlülük ruhunda tərbiyəsi önəmli məsələdir. O, həm də bilirdi ki, müasir dövrdə bu iş çox mürəkkəb və çətindir. Ancaq ulu öndər xalqımızın bu ali keyfiyyəti heç vaxt itirməyəcəyinə əmin idi.

### *Yenidən Bakı və niyə məhz Bakı?*

Dahi liderin bütün sahələr üzrə siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə Azərbaycan mədəniyyətinin inkişafı, milli-mənəvi dəyərlərimizin qorunması, İslam dininə hörmət və ehtiramın güclənməsi, başqa dinlərə qarşı dözümlülüyün daha da möhkəmləndirilməsi sahəsində xeyli iş görülmüşdür. Dövlət başçımız islam mədəniyyəti ilə bağlı tarixi-memarlıq abidələrinin, məscid və ziyarətgahların, müqəddəs dini ibadət və inanc yerlərinin təmiri və bərpası ilə bağlı bir sıra sərəncam və fərmanlar imzalamışdır. Dövlətin tolerantlıq prinsiplərinə yanaşmasını dini konfessiyalara, müxtəlif dinlərin nümayəndələrinə münasibətində, bu istiqamətdə çoxsaylı beynəlxalq konfranslar keçirməsində, din sahəsini ehtiva edən qanunvericilik bazasının möhkəmləndirilməsində də açıq şəkildə görmək mümkündür.

Bu gün öz nümunəvi dəyərlərini bütün dünyaya təqdim edən Azərbaycan əlverişli coğrafi mövqeyindən və çoxmədəniyyətlilik ənənələrindən istifadə edərək artıq dünyada ən mühüm dialoq mərkəzlərindən birinə çevrilmişdir. Son illər həm lokal, həm də qlobal əhəmiyyətli çoxsaylı sammitlərin, forumların, konfrans və seminarların ölkəmizdə təşkil olunması, həmçinin xalqımızın mədəni dəyərlərini, ümumdünya sivilizasiya prosesi ilə qarşılıqlı əlaqəsini təbliğ edən festival və müsabiqələrin, idman yarışlarının məhz respublikamızda keçirilməsi tamamilə məntiqəuyğundur. Bugünlərdə altıncısı yekunlaşan Bakı Beynəlxalq Humanitar Forumu bu qəbildən olan, aktual, ümumbəşəri, humanitar məsələlərin müzakirə edildiyi nüfuzlu tədbirlərdəndir.

2011-ci ildən keçirilən və ənənə halı alan forum hər dəfə 100-ə yaxın ölkədən 500-dən çox tanınmış ictimai-siyasi xadimi, görkəmli elm, mədəniyyət və incəsənət nümayəndəsini birləşdirir, müxtəlif ölkələrin, regionların və nəsillərin nümayəndələrinin ünsiyyət qurmasına, diskussiya aparmasına və ümumi nəticələrə gəlməsinə şərait yaradır. Belə vacib tədbirə məhz Bakının evsahibliyi etməsi forumun əhəmiyyətini daha da artırır. Çünki paytaxtımız müxtəlif mədəniyyətlərin, qədimliklə müasirliyin qovuşduğu bir məkandır, Azərbaycan torpağı bütün dövrlərdə tolerantlığı və qonaqpərvərliyi, Azərbaycan xalqı isə yaratmaq və birləşdirmək bacarığı ilə tanınmışdır. Çünki bu torpaqlarda insan amili hər zaman yüksək yerdə dayanmışdır, insana yüksək dəyər verilmişdir. Prezident İlham Əliyevin Azərbaycanın qarşısında duran vəzifə neft faktorunu insan kapitalına çevirmək olduğunu dəfələrlə söyləməsi də məhz bu xarakterik keyfiyyətimizdən irəli gələn dərin mənalı ifadə tərzidir.

Dövlət başçımızın bu ideyasının da təməlində Azərbaycanın multikulturalizm modelinin mühüm bir xüsusiyyəti dayanır və onun həyata keçirilməsində respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun rolunu xüsusi qeyd etmək lazımdır. Heydər Əliyev Fondu öz beynəlxalq fəaliyyəti, həyata keçirdiyi çoxsaylı layihələri ilə Azərbaycanın multikulturalizminin üstünlüklərini dünyada əyani şəkildə nümayiş etdirir. Fond "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində bugünədək Azərbaycanda və digər ölkələrdə onlarla tədbir və layihələr həyata keçirmişdir. Bu layihələr çərçivəsində dini abidələrdə, ziyarətgahlarda, tikililərdə təmir-bərpa işləri aparılır, müxtəlif konfranslar və sərgilər təşkil edilir.

Fondun Fransanın Luvr muzeyində İslam mədəniyyəti bölməsinin təşkilində, Strasburq və bu ölkənin digər regionlarında kilsələrin təmirində, eləcə də Romadakı katakombaların bərpasında, yəhudi uşaqlar üçün təhsil imkanlarının yaradılmasında yaxından iştirakı, Həştərxanda Müqəddəs Knyaz Vladimirin şərəfinə abidənin ucaldılması da məhz ayrı-ayrı xalqların, konfessiyaların qarşılıqlı hörmət və dostluq münasibətlərinin genişləndirilməsinə xidmət edir.

### *Multikulturalizm siyasəti üçün üç prinsip*

Avropanın multikulturalizmin iflasa uğradığını qəbul və bəyan etdiyi - hətta bunu dövlət xadimlərinin dilindən də eşitmişik - müasir dövrdə dövlətimizin bu istiqamətdə nümayiş

davamı səh. 8

# İlham Əliyevin mükəmməl "multikulturalizm və tolerantlıq modeli"

## Azərbaycanın bu sahədəki təcrübəsi qlobal miqyasda təkmil nümunə kimi qəbul edilir

əvvəli səh. 7

etdirdiyi nümunəvi mövqenin xarici qonaqlar, bu sahənin ekspertləri, araşdırmaçılar, sosioloq və politoloqlar tərəfindən rəğbətlə qarşılanması bir daha doğru yolda olduğumuzu sübut edir. Bu fakt həm də onu göstərir ki, Qərb intellektualları özləri hələ multikulturalizm anlayışını detallı şəkildə müəyyənləşdirməmişlər. Yaxud bu terminə öz dünyagörüşləri, siyasi baxışları, həmçinin seçkiqabağı platformalarının "dekorasiyası" qismində yanaşmışlar. Halbuki Azərbaycan nümunəsi də təsdiq edir ki, multikulturalizm siyasətinin əsasında üç əsas prinsip dayanmalıdır:

- dövlət bütövlükdə plüralizmi, o cümlədən mədəni plüralizmi təmin etməlidir (bu, vətəndaş cəmiyyətinin ən mühüm göstəricisidir);
- hətta ən kiçik mədəni qrupların sosiallaşmasına mane olan əngəllər aradan qaldırılmalıdır;
- müxtəlif mədəniyyətlərin yenidən dirçəlməsi və inkişafı dəstəklənməlidir.

Bu tezislər həm də o deməkdir ki, multikulturalizm müasir qloballaşma şəraitində mədəni dəyərlərin demokratiyasıdır, bərabərhüquqluluğudur və tolerantlıq onun xarakterik xüsusiyyətidir. BMT-nin baş katibi olmuş Butros Butros-Qalinin təbirincə desək: "Biz dayanmadan qloballaşmadan bəhs edirik. Bu, həqiqətən də, mövcud gerçəklikdir. İqtisadiyyat, maliyyə, kommunikasiya qloballaşır. Dünya ekologiya, mütəşəkkil cinayətkarlıq sahələrində qlobal miqyas alan problemlərlə üzləşir, qlobal epidemiyalarla mübarizə aparır. Bizdə çatışmayan demokratiyanın qloballaşması, onun beynəlxalq münasibətlərdə genişlənməsidir. Buna nail olmağın ən yaxşı üsulu mədəni müxtəlifliyin dəstəklənməsidir ki, mən bunu multikulturalizm adlandırıram".

Ümumiyyətlə, son illər sosial elmlər sahəsində çalışan müəlliflərin mübahisələrinə səbəb olan elmi debatlar arasında sivilizasiyaların insan şüurunun, cəmiyyətlərin, eləcə də dövlətlərin inkişafında rolunun mühümlüyü mövzusu xüsusi yer tutur. Samuel Hantinqtonun "Sivilizasiyaların toqquşması" adlı məşhur məqaləsindən sonra bu nəzəriyyə təkcə alimlər deyil, nüfuzlu siyasətçilər üçün də prioritet məsələyə çevrildi.

Faktiki olaraq son zamanlar biz dünya ölkələrinin böyük bir qismində islamafob faktları, dini simvollara qarşı hücumları tez-tez müşahidə edirik. Təəssüf ki, islamofobiya, öz növbəsində, daha bir neqativ təzahürün - müsəlman ölkələrinin milli maraqlarına cavab verməyən vesternfobiya hallarının da genişlənməsinə gətirib çıxarır. Bu isə çox təhlükəli tendensiyadır...

### Özünəinamın təcəssümü

Ölkə Prezidenti cənab İlham Əliyevin VI Bakı Beynəlxalq Humanitar Forumunun açılış mərasimində dediyi kimi: "Humanitar məsələlərin müzakirəsi çox önəmlidir. Çünki biz müasir dünyada bu sahədə həm nailiyyətləri, həm də problemləri görürük. Azərbaycan bu sahəyə çox böyük önəm verən ölkələrdən biridir. Ölkəmizdə humanitar əməkdaşlığa dair bir çox mötəbər beynəlxalq tədbirlər keçirilmişdir. Onların arasında BMT-nin Sivilizasiyalar Alyansının Qlobal Forumunu xüsusilə qeyd etmək istərdim. Bu, çox önəmli beynəlxalq tədbirdir. Eyni zamanda, Bakıda dünya dinləri liderlərinin zirvə görüşü keçirilmişdir. Dörd dəfə Mədəniyyətlərarası Dialoq Forumu keçirilmişdir. VI dəfə Bakı Beynəlxalq Humanitar Forumunun keçirilməsi onu göstərir ki, doğrudan da, Azərbaycan beynəlxalq humanitar əməkdaşlığın dərinləşməsi üçün çox önəmli ölkəyə çevrilmişdir".

Son illər müxtəlif istiqamətli beynəlxalq tədbirlərin, konfransların, idman yarışlarının niyə məhz paytaxtımızda təşkil olunmasının səbəblərini yuxarıda qeyd etmişdik. O səbəblərdən biri də odur ki, Azərbaycan xalqı və dövlətimizin rəhbərliyi özünə əmindir, hansı addımlar atmaq lazım olduğunu çox yaxşı bilir. Bu mötəbər tədbirin Bakıda keçirilməsi də məhz bu əminliyin göstəricisidir.

Prezident İlham Əliyev VI Bakı Beynəlxalq Humanitar Forumunun açılış mərasimindəki öz dərin məzmunlu çıxışı ilə göstərdi ki, bu kimi tədbirlər həm də ölkəmizlə bağlı həqiqətlərin, xüsusilə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin məhz Ermənistanın nizamlama prosesinə aqressiv, destruktiv yanaşması ucbatından 25 ildir həll edilmədiyini beynəlxalq ictimaiyyətə bir daha bəyan etmək üçün çox yaxşı vasitədir. Bir sözlə, bu cür tədbirlərə evsahibliyi etməyimiz də ideoloji qələbəmizdir və ermənilərin təcavüzkar siyasətinin ifşa olunmasında, Azərbaycanın həyat tərzinin, siyasətinin təcavüzkar ölkədən qat-qat yüksək olduğunu nümayiş etdirməkdə böyük rol oynayır.

Şübhəsiz ki, əvvəlki illərdə olduğu kimi, geridə qalan VI Bakı Beynəlxalq Humanitar Forumunda da müzakirəyə çıxarılan məsələlər bəşəriyyətin üzləşdiyi çağırışlara cavab verməsi baxımından mühüm töhfələri ilə yadda qalacaqdır. Çünki müxtəlif peşə və ixtisas sahiblərinin, xüsusilə də mədəniyyət sahəsini təmsil edən insanların Bakıda bir araya gələrək mühüm məsələləri müzakirə etməsi böyük nəticədir.

Bir sözlə, bu gün Azərbaycan dövləti təkcə ölkədaxili problemlərlə məşğul deyil, o, həm də xarici ölkələrdə mədəni quruculuq işi ilə məşğul olur, yol göstərir, müxtəlif problemlərin həlli üçün yol xəritəsi çəkir. Çünki genetik kodu mərhəmət, humanizm, ədalət kimi bəşəri keyfiyyətlərlə zəngin olan biz azərbaycanlılar hər zaman daha hissiyyatlı, başqalarının acı talelərinə daha həssas yanaşmışıq, bizə ikili standartlarla yanaşan dünyaya açıq olmuşuq, ümumbəşəri ideyaları, dəyərləri doğma şəkildə qəbul etmişik.

**Mübariz QURBANLI,**
***Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri***

*"Azərbaycan" qəzeti*
*01 noyabr 2018-ci il*

# Dövlət Komitəsində görüşlər



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı noyabrın 26-da ABŞ-ın yəhudi icmasının nüfuzlu qurumlarından olan Simon Vizental Mərkəzinin təsisçisi Abraham Kuper və yevangelist icmasının nümayəndəsi Conni Mur ilə görüşüb.

Ölkəmizdəki nümunəvi dövlət-din münasibətlərindən, tolerantlıq siyasətindən bəhs edən Dövlət Komitəsinin sədri Azərbaycanda fəaliyyət göstərən dini konfessiyalar arasındakı tolerant münasibətin qarşılıqlı hörmətə və əməkdaşlığa, bir-birini dəstəkləmək prinsipinə əsaslandığını bildirib. O, Azərbaycan xalqının dözümlülük keyfiyyətinin, ölkədə hökm sürən tolerantlıq mühitinin qorunub-saxlanılması istiqamətində Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu din siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini qeyd edib.

Bu gün Azərbaycanda yalnız kilsə və sinaqoqların deyil, eyni zamanda bir çox xristian, yəhudi dini tədris müəssisələrinin sərbəst fəaliyyət göstərdiyini bildirən Mübariz Qurbanlı, eyni zamanda yəhudi icmalarının Azərbaycandakı fəaliyyətindən danışıb. Dövlət Komitəsinin sədri ölkəmizdə 21-i xristian, 8-i yəhudi, 1-i krişna və 2-si bəhai olmaqla 32 qeyri-müsəlman dini icmasının dövlət qeydiyyatına alındığını və bu icmaların Azərbaycanın ictimai-siyasi həyatında yaxından və fəal iştirak etdiyini xüsusi olaraq qeyd edib.

Abraham Kuper Azərbaycanın dinlərə münasibətdə tolerantlığı, sünnilər ilə şiələr arasındakı vəhdətə görə bütün dünyada fərqləndiyini vurğulayıb. O, bunun mütərəqi dünyanın və beynəlxalq qurumların rəsmilərinin etiraf etdikləri fakt olduğunu deyib. Ölkəmizin tolerantlıq ənənələri və dinlərarası dialoqa dair nümunəvi modelə malik olduğunu diqqətə çatdıran qonaq yəhudi icmalarına göstərilən diqqət və qayğıya görə təşəkkürünü bildirib. O, 7 sinaqoqun fəaliyyət göstərməsini, icmalara mütəmadi maddi vəsaitlərin ayrılmasını ölkəmizdəki tolerant mühitin, dinə dövlət qayğısının bariz nümunəsi adlandırıb.

Qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə fikir mübadiləsinin aparıldığı görüşün sonunda qonaqlara DQİDK-nın nəşr etdirdiyi, Azərbaycanda mövcud olan multikulturalizm və tolerantlıq ənənələrindən, eləcə də işğal olunmuş ərazilərimizdə vandalizm hərəkətlərinə məruz qalan tarixi-dini abidələrdən bəhs edən kitablar təqdim olunub.

Görüşdə Azərbaycanın Los-Ancelesdəki baş konsulu Nəsimi Ağayev də iştirak edib.

* * *

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Səyavuş Heydərov noyabrın 12-də Beynəlxalq Vineyard kilsələri Assosiasiyasının rəsmi nümayəndəsi Allen Alen ilə görüşüb.

Qonağa ölkəmizdəki sabit dini durum, tolerant və multikultural mühit barədə məlumat verən Səyavuş Heydərov Azərbaycandakı etnik və dini dözümlülüyün tarixi ənənələrə əsaslandığını və cəmiyyətimizin tələbi olduğunu bildirib. Sədr müavini ölkəmizdə dinlərarası harmoniyanın yaradılmasına, dini konfessiyalar arasında əməkdaşlığın genişləndirilməsinə xüsusi önəm verildiyini diqqətə çatdırıb. Bildirib ki, dini konfessiyaların qanun qarşısında bərabər olması, digər dinlərə məxsus ibadətgahların bərpa edilməsi, dini icmalara mütəmadi maliyyə yardımlarının ayrılması Azərbaycan gerçəkliyini əks etdirən sağlam dini-mənəvi durumun göstəricisidir.

Qonağı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə də məlumatlandıran sədr müavini Ermənistanın təcavüzkarlıq siyasətini davam etdirməsinin, Azərbaycan ərazilərini işğalda saxlamasının təkcə Azərbaycanda deyil, bütün regionda sülhün bərqərar olmasına, dinlərarası əməkdaşlığın formalaşmasına ciddi problemlər yaratdığını diqqətə çatdırıb.

Beynəlxalq Vineyard kilsələri Assosiasiyasının rəsmi nümayəndəsi Allen Alen Azərbaycanın dinlər və mədəniyyətlərarası dialoqun gerçəkləşməsi üçün atdığı addımları yüksək qiymətləndirib. Ölkəmizdə şahid olduğu dinlərarası harmoniya və etnik-dini tolerantlıqdan bəhs edən qonaq "Vineyard Azərbaycan" xristian dini icmasının fəaliyyətinə göstərilən dəstəyə və qayğıya görə minnətdarlığını ifadə edib.

# “AZƏRBAYCANDA TOLERANTLIQ: DÜNƏN, BU GÜN, SABAH”




Noyabrın 15-də Bakıda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə 16 noyabr - Beynəlxalq Tolerantlıq Günü münasibətilə “Azərbaycanda tolerantlıq: dünən, bu gün, sabah” mövzusunda konfrans keçirilib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi və Qafqaz Müsəlmanları İdarəsinin rəhbər şəxslərinin, ölkəmizdə fəaliyyət göstərən dini konfessiyaların rəhbərlərinin, eləcə də ictimaiyyət nümayəndələrinin iştirak etdikləri tədbiri giriş sözü ilə açan Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı Azərbaycan hökumətinin din siyasətinin prioritet istiqamətlərindən birinin məhz tolerantlıqla bağlı olduğunu bildirib. Vurğulayıb ki, xalqımızın minilliklər ərzində formalaşmış tolerantlıq ənənələrini qoruyub saxlamaq, inkişaf etdirmək, yerli və beynəlxalq səviyyədə təşviq və təbliğ etmək dövlətin din siyasətinin əsas hədəfləri sırasındadır. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş siyasətin davamı olaraq Prezident İlham Əliyev tolerantlığı dövlət siyasəti səviyyəsinə qaldırıb. Respublikamızın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu öz beynəlxalq fəaliyyəti, həyata keçirdiyi çoxsaylı layihələri ilə Azərbaycanın multikulturalizminin üstünlüklərini dünyada əyani şəkildə nümayiş etdirir.



Diqqətə çatdırılıb ki, dövlətin tolerantlıq prinsiplərinə yanaşmasını həm dini konfessiyalara, müxtəlif dinlərin nümayəndələrinə, tarixi-dini abidələrin bərpasına, həm bu istiqamətdə təşkil etdiyi beynəlxalq konfranslara münasibətdə, həm də milli qanunvericiliyin mahiyyətində açıq-aydın görmək mümkündür. Azərbaycanda təkcə səmavi dinlərin yox, onların müxtəlif qollarının və cərəyanlarının mənsublarına da sərbəst şəkildə ibadət etmək, əqidələrini yaymaq imkanı yaradıldığını bildirən Dövlət Komitəsi sədrinin birinci müavini tolerantlığın Azərbaycan xalqının spesifik keyfiyyəti olduğunu deyib. Əlavə edib ki, Azərbaycandakı tolerantlıq mühiti ölkənin dini mənzərəsini əks etdirir.

Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Fuad Nurullayev bildirib ki, dövlət-din münasibətlərinin yüksək səviyyədə olması cəmiyyətdə mənəvi sabitliyin göstəricisidir. O qeyd edib ki, Azərbaycanda tarixən müxtəlif millətlərin və dinlərin nümayəndələri əmin-amanlıq şəraitində yaşayıblar.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktor əvəzi Rəvan Həsənov çıxışında Azərbaycanın öz multikultural və tolerant yaşam tərzi ilə dünyaya nümunə olduğunu qeyd edib. O, eyni zamanda BBMM-in Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıtmaq və mövcud multikultural modelləri tədqiq və təşviq etmək istiqamətində gördüyü işlər barədə məlumat verib.

Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşein vurğulayıb ki, Azərbaycanda dünyəvilik dövlət və Konstitusiya səviyyəsində dəstəklənir. A.İşein ölkəmizdə dünyəvi dəyərlərə, bəşəri ideallara, eləcə də başqa dini dəyərlərə hörmət göstərildiyini deyib.

Bakı şəhəri Dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayev isə Azərbaycanda antisemitizm əlamətlərinin heç vaxt müşahidə olunmadığını bildirib. Qeyd edib ki, Azərbaycanda həmişə yəhudilərə doğma münasibət olub. M.Yevdayev digər konfessiyaların nümayəndələri kimi, yəhudi icmasının nümayəndələrinin də öz dini ayinlərini və adət-ənənələrini azad şəkildə həyata keçirdiklərini vurğulayıb.

Katolik Kilsəsinin Azərbaycandakı yepiskopu Vladimir Fekete, Avropa Yəhudilərinin Bakı dini icmasının nümayəndəsi Moisey Bekker, Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili çıxışlarında dövlətin qeyri-müsəlman dini konfessiyalara göstərdiyi diqqət və qayğıdan söz açıblar, Azərbaycanın nümunəvi tolerant modelinin müsəlmanların, yəhudilərin və xristianların sülh və qarşılıqlı hörmət şəraitində dinc yanaşı yaşamaq imkanlarını sübuta yetirdiyini bildiriblər.

Konfrans Azərbaycanda formalaşmış dini tolerantlıq mühitinin qorunub saxlanılması və onun daha da möhkəmləndirilməsi, eyni zamanda, bu sahədə əldə edilən nailiyyətlərin beynəlxalq ictimaiyyətə təbliği barədə fikir mübadiləsi ilə yekunlaşıb.

# “Dini radikalizmlə mübarizə: hüquqi və mənəvi yanaşma” mövzusunda tədbir keçirilib

Noyabrın 7-də Daxili Qoşunların “N” saylı hərbi hissəsində “Dini radikalizmlə mübarizə: hüquqi və mənəvi yanaşma” mövzusunda tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan hərbi hissə komandiri mövzunun əhəmiyyətini vurğulayaraq, gəncləri radikal dini cərəyanların qurbanına çevrilməkdən qorumağın, onları vətənpərvər ruhda tərbiyə etməyin zəruriliyindən danışıb. O bildirib ki, şəxsi heyətin vətənpərvərlik hissi, mənəvi-psixoloji hazırlığı və döyüş ruhu yüksək səviyyədədir.

Daha sonra çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı bildirib ki, son zamanlar dünyada dini zəmində baş verən terrorun əksəriyyəti İslam dini pərdəsi altında gizlənən, lakin İslamla heç bir əlaqəsi olmayan terrorçu dəstələr tərəfindən həyata keçirilir.

Dünyada baş verən bu cür neqativ hadisələrin fonunda tolerantlıq və multikulturalizm mədəniyyətinin inkişaf etdirilməsinin vacibliyinə diqqət çəkən S.Salahlı söyləyib ki, bu baxımdan ölkəmiz dünya üçün bir nümunədir: “Azərbaycanda tarixən müxtəlif mədəniyyətlərin, dinlərin, millətlərin, etnik qrupların nümayəndələri qarşılıqlı hörmət, birgə yaşayış şəraitində bir ailə kimi yaşayıb və bu ənənə günümüzdə də davam edir. Ölkəmizdə dini etiqad azadlığı tam təmin edilir və bütün dinlərin, xalqların, etnik qrupların nümayəndələri eyni hüquqlara malikdirlər”.

Azərbaycanda belə bir mühitin mövcud olmasında cəmiyyətdə formalaşmış dini dözümlülük, tolerantlıq və multikultural dəyərlərə yanaşı, düşünülmüş dövlət siyasəti də çox böyük rol oynayır. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra dövlət tərəfindən bu sahədə yaradılan bütün zəruri şərait və dəstək dünyaya örnək sayılacaq səviyyədədir. Təbii ki, digər sahələrdə olduğu kimi, dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində də Ulu Öndər Heydər Əliyevin böyük xidmətləri olub və bu siyasət dövlət başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilir.



S.Salahlı onu da vurğulayıb ki, ölkəmizdə hökm sürən multikulturalizm və dinlərarası tolerantlıq mühitinə qarşı əsas təhdidlərdən biri dini radikalizmdir. O, dini radikalizmin yaranma səbəblərindən biri kimi İslam dini haqqında məlumatsızlıq və düzgün təqdim olunmamasını göstərib.

Dini radikalizmə qarşı mübarizədə dini maarifləndirmə tədbirlərinin əhəmiyyətindən danışan sədr müavini qeyd edib ki, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə milli-mənəvi və dini dəyərlərin qorunması istiqamətində dövlət siyasəti həyata keçirilir. Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun, eyni zamanda Azərbaycan İlahiyyat İnstitutunun yaradılması bu siyasətin bariz nümunəsidir.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

# "Dini icmalar və gənclər: dini radikalizmlə mübarizə və birgə fəaliyyətin təşkili"

## SALYANDA

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Salyan Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə noyabrın 12-13-də "Dini icmalar və gənclər: dini radikalizmlə mübarizə və birgə fəaliyyətin təşkili" mövzusunda ikigünlük seminar-müşavirə keçirilib.

Rayon hüquq mühafizə orqanlarının rəhbərləri, dini icma sədrləri və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi seminar-müşavirəni açan RİH başçısı Sevindik Hətəmov vurğulayıb ki, Prezident İlham Əliyevin rəhbərlik etdiyi müstəqil respublikamızda mövcud olan bütün dinlərin nümayəndələrinə qarşı dözümlülük və tolerantlıq nümayiş olunur. Sevindik Hətəmov rayondakı dini durum barədə də məlumat verib. O, eyni zamanda qeyd edib ki, bu cür maarifləndirmə tədbirlərinin keçirilməsi olduqca əhəmiyyətlidir.

İştirakçıları 12 Noyabr - Konstitusiya Günü münasibətilə təbrik edən DQİDK sədrinin birinci müavini S.Salahlı bildirib ki, respublikamızda Ulu Öndər Heydər Əliyevin formalaşdırdığı dövlət-din siyasətinə uyğun olaraq dini konfessiyalar arasında dözümlülük mühitinin inkişaf etdirilməsi sahəsində dönüş yaranıb. Onun sözlərinə görə, ölkədə dövlətlə dini qurumların münasibəti yeni mərhələyə qədəm qoyub. S.Salahlı deyib ki, Azərbaycanda tolerant və multikultural mühit formalaşıb və bu, bütün dünyada müasir və mütərəqqi cəmiyyət modeli kimi qəbul edilir.

Dini radikalizm və ekstremizm hallarından da danışan Dövlət Komitəsi sədrinin birinci müavini cəmiyyət üçün təhlükəli olan zərərli dini cərəyanların qarşısının alınması üçün dini maarifləndirməyə böyük ehtiyac olduğunu bildirib və bu istiqamətdə DQİDK-nın müvafiq qurumlarla birgə tədbirlərin həyata keçirdiyini diqqətə çatdırıb. Natiq, həmçinin dini radikalizmlə mübarizədə dini icmaları, din xadimlərini fəal olmağa çağırıb.

Daha sonra çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) bölgə qazısı Hüsni Həsənov qeyd edib ki, İslam dini tarixən dilindən, irqindən və sosial mənsubiyyətindən asılı olmayaraq bütün müsəlmanları bir bayraq altında birləşdirib. İslam digər səmavi dinlərin nümayəndələrinə də insanpərvərlik prinsiplərinə zidd davranmağı qadağan edib. QMİ-nin qazısı dini radikalizmin və ekstremizmin dinimizdəki vəhdətə təhlükə olduğunu da qeyd edib.

***İkigünlük seminar-müşavirə noyabrın 13-də öz işini davam etdirib.***

Tədbiri giriş sözü ilə açan Salyan RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı Aqşin Babayev bildirib ki, dini radikalizm və xurafat bütün cəmiyyət üçün təhlükəlidir. Natiq, eyni zamanda gənclərin yad dini ideologiyaların təsirindən qorunmasında dini maarifləndirmə tədbirlərinin mühüm rola malik olduğunu deyib.

Daha sonra çıxış edən DQİDK sədrinin birinci müavini Səyyad Salahlı Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu və bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən daxili və xarici siyasət nəticəsində ölkəmizdə hökm sürən ictimai-siyasi sabitlikdən və bütün dünyaya örnək ola biləcək tolerantlıq mühitindən bəhs edib. S.Salahlının sözlərinə görə, Azərbaycanda bütün xalqların və dinlərin nümayəndələri dostluq, sülh şəraitində yaşayırlar. Sədrin birinci müavini ölkəmizdə fərqli dinlərə mənsub icmalar arasında münasibətlərin yüksək səviyyədə olduğunu diqqətə çatdırıb.



Səyyad Salahlı bildirib ki, bu cür tədbirlərin keçirilməsində məqsəd Azərbaycan xalqının zəngin multikultural və tolerantlıq ənənələrinin təbliği, eyni zamanda dini radikalizm və ekstremizmlə mübarizədir. O deyib ki, dünyada dinlər və məzhəblərarası münaqişələrin baş verdiyi dönəmdə Azərbaycan özünün tolerantlıq ənənələrini və multikulturalizm modelini dünyaya nümunə kimi təqdim edir.

Daha sonra çıxış edən DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Cahandar Əlifzadə dini radikalizm və ekstremizmin cəmiyyət üçün təhlükələrindən danışıb. C.Əlifzadə radikalizm və ekstremizmin yayılması və gəncləri öz təsiri altına almasının qarşısının alınması üçün dini maarifləndirmə tədbirlərinin əhəmiyyətinə diqqət çəkib, İslamın insanlara düzgün şəkildə çatdırılmasının vacibliyini vurğulayıb.

Tədbir iştirakçıların suallarının cavablandırılması ilə yekunlaşıb.




## GÖYGÖLDƏ

Eyni mövzuda daha bir seminar-müşavirə noyabrın 22-23-də Göygöl rayonunda keçirilib.

Rayon hüquq mühafizə orqanlarının rəhbərləri, dini icma sədrləri və digər ictimaiyyət nümayəndələrinin iştirak etdiyi seminar-müşavirəni açan RİH başçısının birinci müavini Turani Əliyev bildirib ki, Ulu Öndər Heydər Əliyevin Azərbaycanda dövlət-din münasibətlərinin, milli-mənəvi dəyərlərin qorunub saxlanılmasında əvəzsiz xidmətləri olub. T.Əliyevin sözlərinə görə, Azərbaycanın müstəqilliyinin ilk illərində bu sahədə qəbul edilən qanunların sonradan təkmilləşdirilməsi də Ümummilli Liderin adı ilə bağlıdır. RİH başçısının birinci müavini, eyni zamanda rayondakı dini durum və dini icmaların fəaliyyəti barədə də ətraflı məlumat verib.

Daha sonra çıxış edən DQİDK sədrinin birinci müavini Səyyad Salahlı ölkəmizdə mövcud olan tolerantlıq ənənələrindən, onun qorunub saxlanılması istiqamətində görülən işlərdən ətraflı bəhs edib. S.Salahlı bildirib ki, bu gün Prezident İlham Əliyevin Ümummilli Lider Heydər Əliyevin zəngin siyasi irsinə söykənən ardıcıl, məqsədyönlü fəaliyyəti nəticəsində respublikamız dinə, vicdan azadlığına, tolerant və multikultural dəyərlərə münasibətdə nümunəvi ölkəyə çevrilib. Dövlət Komitəsi sədrinin birinci müavini Azərbaycanda dini, milli ayrı-seçkiliyə, antisemitizm, ksenofobiya hallarına heç vaxt rast gəlinmədiyini vurğulayıb. Səyyad Salahlı qeyd edib ki, dövlətimiz tərəfindən mütəmadi olaraq ölkəmizdə fəaliyyət göstərən dini konfessiyalara maddi və mənəvi dəstək göstərilir.

DQİDK sədrinin birinci müavini dini radikalizmlə mübarizədə hər kəsi, o cümlədən gəncləri fəal olmağa çağırıb. Natiq bildirib ki, bu sahədə dini icmaların və din xadimlərinin üzərinə böyük məsuliyyət düşür.

Sonda çıxış edən Göygöl şəhər Heydər məscidi dini icmasının sədri Əlaslan Cəfərov İslam dininin sülh, mərhəmət və həmrəylik dini kimi, milli-mənəvi dəyərlərimizin ayrılmaz tərkib hissəsi olduğunu qeyd edib.

***Gənclər və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi ikigünlük seminar-müşavirə öz işini növbəti gün davam etdirib.***

Tədbiri giriş sözü ilə açan RİH başçısının birinci müavini Turani Əliyev bildirib ki, gənclərin yad dini ideologiyaların təsirindən qorunmasında dini maarifləndirmə tədbirləri mühüm rola malikdir. Natiq bu istiqamətdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin fəaliyyətini yüksək qiymətləndirib.

Azərbaycanda mövcud olan tolerant və multikultural mühitdən danışan DQİDK sədrinin birinci müavini Səyyad Salahlı çıxışında vurğulayıb ki, respublikamızda 861 dini qurum qeydiyyatdan keçib ki, onların 830-u İslam, 31-i isə qeyri-islam təmayüllüdür. Sədrin birinci müavini onu da deyib ki, Azərbaycanda 2250 məscid, 14 kilsə, 7 sinaqoq fəaliyyət göstərir.

Yaxın şərqdə gedən proseslərə nəzər salan S.Salahlı vurğulayıb ki, dünyada, xüsusilə müsəlman ölkələrində sabitliyin pozulmasında din amili xüsusi rol oynayır və beynəlxalq güclər bu vəziyyətdən məharətlə istifadə edir. Onun sözlərinə görə, bu, müəyyən şəxslər və qurumlar tərəfindən yaradılan çoxsaylı hərəkat və cərəyanların timsalında özünü açıq büruzə verir. Sədrin birinci müavini qeyd edib ki, bir sıra ölkələrdə zərərli dini təriqətlərin sərbəst yayılması, radikal və ekstremist qruplarla mübarizə işinin səmərəli qurulmaması, dindən siyasi məqsədlər üçün istifadəyə şərait yaradılması dünyada ekstremizm və dözümsüzlük meyllərini daha da artırır, onların əhatə dairəsini genişləndirir.

Daha sonra çıxış edən DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Cahandar Əlifzadə dini radikalizm və ekstremizmin cəmiyyət üçün təhlükələrindən danışıb. Bildirib ki, "radikal dini qruplar" kimi səciyyələndirilən belə dini cərəyanlara, demək olar ki, bütün böyük dinlərin tarixində rast gəlinir. C.Əlizadənin sözlərinə görə, dinləri əsas məqsədindən uzaqlaşdıran belə radikal qruplara, təəssüf ki, indiki dövrdə də təsadüf olunur.



Sonda DQİDK-nın sifarişi ilə çəkilmiş "Üfüqdəki gələcək" sənədli filmi nümayiş olunub.

Tədbir iştirakçıları maraqlandıran sualların cavablandırılması ilə yekunlaşıb.

# DİLİMİZİN SAFLIĞININ QORUNMASI VƏ GƏLƏCƏK NƏSLƏ ÖTÜRÜLMƏSİ HƏR BİRİMİZİN VƏZİFƏSİDİR

**Bizim dilimizə lüzumsuz xarici kəlmələr lazım deyil.**
*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev*

Bir milləti digərlərindən fərqləndirən və onların içində əriyib yox olmasının qarşısını alan həmin millətin özünəməxsus milli-mənəvi dəyərləridir. Bu dəyərlər din və dil, tarixdən miras qalmış mədəni-mənəvi irs və sairədir.

Hər bir etnosun milli kimliyinin və varlığının qorunmasının təməl daşlarından biri də dildir. İnsan yeganə varlıqdır ki, dil ünsiyyətindən istifadə edərək bugünkü inkişaf səviyyəsinə gəlib çatmışdır. Bəzi dillər tarixin çətinliklərindən keçə bilməyərək itib-batmışdır.

Görkəmli Azərbaycan maarifçisi Firidun bəy Köçərli deyirdi ki, əgər bir xalqın bütün maddi və mənəvi irsini əlindən alsan, ancaq ana dilinə toxunmasan, həmin millət yox olmaz. O, az müddət sonra yenidən ayağa qalxar. Ana dili olmayan bir milləti isə heç bir mal-dövlətlə diriltmək olmaz. Bizim dilimizə də zaman-zaman ciddi təzyiqlər olub. Xüsusilə XX əsrin 30-cu illərindən başlayaraq rus imperiyasının tərkibindəki bütün xırda xalqların dillərinə olan təzyiq və təqiblər Azərbaycan dilindən də yan keçməyib. Dövlət səviyyəsində nəinki Azərbaycan dili işlədilmirdi, hətta onun hərtərəfli araşdırılmasına imkan verilmirdi. Həmin dövrdə "Kitabi-Dədə Qorqud"un dil və mənəviyyat baxımından öyrənilməsi, onun elmi-nəzəri baxımdan tədqiqi qadağan edilmişdi. İstənilən formada dil üzrə tədqiqatların türkçülüklə əlaqələndirməsinə imkan vermir, belə müəlliflərə "pantürkist" damğası vurulurdu. Türk, türk dili, türk xalqları və s. terminlər Azərbaycan xalqı üçün vahimə yaradan leksik vahidlərə çevrilmişdi. Belə bir şəraitdə xalqın ziyalı oğulları yenə də öz sözlərini deyir, Azərbaycan dilinin yad dil qarşısında məhvinə imkan vermirdilər. Mirzə İbrahimov, Şıxəli Qurbanov, Əbdüləzəl Dəmirçizadə, Bəxtiyar Vahabzadə və başqalarının Azərbaycan dilinin qorunması, təmizliyi və inkişafı yolunda mübarizələri xalqın yaddaşında əbədi iz buraxmışdır.

SSRİ dövründə Azərbaycan Konstitusiyasında respublikamızın rəsmi dövlət dili kimi rus dili təsbit olunmuşdu. 1969-cu ildə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlməsi Azərbaycan dilinin çiçəklənməsinin əsas səbəbi oldu. İlk dəfə olaraq məhz Ulu Öndərin dərin və uzaqgörən siyasəti nəticəsində respublikamızın Konstitusiyasında (1978-ci il) Azərbaycan dili rəsmi dil kimi təsbit edildi.

Azərbaycan xalqının təkidli tələbi ilə Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra digər sahələrdə olduğu kimi, milli-mənəvi dəyərlərimizin tərkib hissəsi olan ana dilimizin nüfuzunun artırılması istiqamətində də məqsədyönlü və ardıcıl iş aparmağa başladı. Onun ana dilimizin saflığının qorunması, dilimizə hörmətlə yanaşmağın vacibliyi istiqamətində apardığı mübarizə xalqın və dilin tarixində xüsusi səhifədir. 1993-cü ildən sonra Heydər Əliyev dilimizin qorunması, inkişaf etdirilməsi, respublikamızın bütün idarə və təşkilatlarında dövlət dili kimi tətbiq edilməsi uğrunda əzmkar fəaliyyət və qətiyyət nümayiş etdirdi. Onun 18 iyul 2001-ci il tarixli Fərmanı Azərbaycan dilinin tarixinə bəxş etdiyi ən parlaq səhifə idi. Ulu Öndər Heydər Əliyev çıxışlarının birində bu barədə deyirdi: "Dünyada yaşayan azərbaycanlılar öz ana dilini, dinini, milli ənənələrini heç zaman unutmamalıdırlar. Hər bir azərbaycanlı fəxr etməlidir ki, onun böyük tarixə, qədim, zəngin mədəniyyətə malik olan Azərbaycan kimi vətəni vardır".

Dilimizin saflığının qorunub saxlanılması və gələcək nəslə ötürülməsində hər birimizin üzərinə böyük vəzifə düşür. Yeni elektron mediada, televiziya və radioda, o cümlədən, tərcümə olunan ədəbiyyatlarda müəyyən dil qüsurlarına rast gəlinir. Toxunduğumuz mövzu çox geniş olduğu üçün mən burada sadəcə tərcümə olunan dini ədəbiyyatlardan və din xadimlərinin danışıq üslubundan qısa şəkildə danışacağam.

Hazırda ölkəmizdə dinə aid xeyli tərcümə ədəbiyyatına rast gəlmək mümkündür. Dini kitabların satıldığı mağazalarda oxuculara müxtəlif səpkili dini ədəbiyyatlar təklif olunur. Demək olar ki, hər ay oxucular yeni-yeni tərcümə kitabları ilə tanış olurlar. Tərcümələr, əsasən, ərəb, türk və fars dillərindəndir. Dini ədəbiyyatın dilimizə tərcüməsi zamanı yaxşı tərcümələrlə yanaşı, qüsurlu, Azərbaycan dili normaları ilə səsləşməyən, sintaktik qaydalara uyğun gəlməyən birləşmələrin, yad istilahların üstünlük təşkil etdiyi tərcümələr də kifayət qədərdir.

Eyni zamanda, tərcümələrdə orfoqrafik qaydalara da riayət olunmur: həm sözlər düzgün yazılmır, həm də durğu işarələri düzgün işlədilmir. Problem sintaktik-qrammatik normalara riayət olunmalı məqamlarda da özünü aydın göstərir. Buraya əsasən uzlaşma prinsipinin pozulması halları daxildir. Diqqət çəkən məqamlardan biri də üslub xətasıdır. Əksər tərcüməçilər hədəf dilin tələblərinə cavab vermir, yəni fikir kənarda qalır, cümlə sözbəsöz tərcümə olunur. Əslində, cümlələrdə və birləşmələrdə mənbə dilinin deyil, hədəf dilinin üslubu əsas götürülməlidir. Cəfər Cabbarlının məşhur ingilis dramaturqu Vilyam Şekspirin "Hamlet" əsərinin dilimizə tərcüməsi buna çox gözəl örnəkdir. Həmin əsərdə Hamletin monoloqunda belə bir ifadə var, "To be or not to be" (olmaq, ya olmamaq). Amma Cəfər Cabbarlı onu hərfi deyil, məna baxımdan bu cür tərcümə etmişdir: "Olum, ya ölüm". Təəssüf ki, bu gün dilimizə edilən tərcümələrdə əsasən hərfi mənaya rast gəlinir. Məsələn, "Cənabi Allah", "doğruları göstərmək", "sevgili peyğəmbərimiz", "o həzrət buyurdu ki", "Allah təbarəkü və təala bunu bizə mükəlləf buyurmayıb" və s. bu kimi ifadələr Azərbaycan dili ilə uyğunluq təşkil etmir, tərcümədə yad və qeyri-səmimi səslənir.

Bir şeyi də ürək ağrısı ilə qeyd etmək istəyirəm ki, bu gün bizim din xadimlərimizin bir çoxu moizələrində, nitqlərində başqa ölkələrin danışıq üslubundan istifadə edirlər. Bu, daha çox, xarici ölkələrdə təhsil alanların danışığında özünü göstərir. Onlar istər yas mərasimlərində, istər əzadarlıq məclislərində, istərsə də xütbələrində dilimizin saflığına xələl gətirirlər.



Türkiyədə oxuyub gələnlər, daha çox, türk ağzı və ləhcəsi ilə danışırlar. Ərəb ölkələrində təhsil alanlar danışıqda boğaz səslərindən (bəlkə qəsdən!-daha artıq alimnüma görünmək üçün), İran dini məktəblərini bitirənlər isə kəlmələri uzada-uzada tələffüz edirlər. Yaxud da deyirlər ki, "qapını təqqülbab eylədi", yəni "qapını döydü". Bunu belə sadə şəkildə demək o qədərmi çətindir?!

Xaricdə dini təhsil alanların bir-birinə müraciətində də oxşar problem özünü aydın göstərir: "Abi", "ağa" və yaxud "əxi". Bütün bunlar bizə Cəlil Məmmədquluzadənin "Anamın kitabı" əsərini xatırladır. Mirzə Cəlil bu mənzərəni hələ XX əsrin əvvəlində çox gözəl təsvir etmişdi. Tarixin iztehzasına bax ki, yüz ildən sonra eyni hadisələr təkrar olur.

Dil də müqəddəsdir, mənəviyyat göstəricisidir. Ona görə də dilə məhəbbəti Vətənə, Anaya məhəbbətlə müqayisə etmək daha doğrudur. Milli dili yaşatmaq lazımdır. Dövlət nə lazımdırsa edir, ancaq cəmiyyətin fəallaşması da vacibdir. Bu gün Azərbaycan dilinin qorunması, onun daha da zənginləşdirilməsi hər birimizin qarşımızda duran başlıca vəzifələrdəndir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: "Ana dilimizə hörmət və qayğı daim olmalıdır. Biz ana dilimizi xarici təsirdən qorumalıyıq. Ana dilimiz bizim toxunulmaz sərvətimizdir. Azərbaycan xalqının formalaşmasında, müstəqil Azərbaycanın formalaşmasında ana dilimiz - Azərbaycan dili müstəsna rol oynamışdır. Biz elə etməliyik ki, dilimizin saflığını daim qoruyaq".

**Səyyad Salahlı,**
*Dini Qurumlarla İş üzrə*
*Dövlət Komitəsi sədrinin birinci müavini*

# QEYDİYYATDAN KEÇƏN DİNİ İCMALARA ŞƏHADƏTNAMƏLƏR VERİLİB

Noyabrın 29-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) yeni qeydiyyatdan keçmiş 30 dini icmaya şəhadətnamələr təqdim edilib. Bu məqsədlə təşkil edilmiş tədbirdə Dövlət Komitəsinin rəhbərliyi, şöbə müdirləri və yeni qeydiyyatdan keçmiş dini icmaların sədrləri iştirak ediblər.

Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı çıxışında bildirib ki, Ümummilli Lider Heydər Əliyevin uzaqgörənliklə əsasını qoyduğu və bu gün Prezident İlham Əliyevin uğurla davam etdirdiyi dövlət-din münasibətləri sağlam prinsiplər üzərində qurulub. Sədrin birinci müavini vurğulayıb ki, ölkəmizdə ənənə halını almış tolerantlıq və multikultural mühit dünyada ən müasir və mütərəqqi cəmiyyət modeli kimi qəbul edilib. Onun sözlərinə görə, dövlətimiz tərəfindən mütəmadi olaraq dini konfessiyalara maddi və mənəvi dəstək göstərilir, müxtəlif etnik qrupların öz dillərini, mədəni dəyərlərini qoruyub saxlamaları, dini inanclarını rahat şəkildə yerinə yetirə bilmələri üçün lazımi şərait yaradılır.

S.Salahlı qeyd edib ki, respublikamızda ölkə rəhbərliyi tərəfindən mənəvi dəyərlərin təbliğinə, dini maarifləndirmə işini təşkilinə, eyni zamanda dindarlara diqqət və qayğı göstərilməkdədir. "Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılması, din xadimlərinə maddi dəstəyin göstərilməsi, dini ibadət yerlərinin tikintisi və ya əsaslı təmiri bu diqqətin bariz nümunəsidir", deyə DQİDK sədrinin birinci müavini əlavə edib.

Dini radikalizm və xurafatla mübarizə tədbirlərindən də danışan S.Salahlı bu sahədə dindarların, o cümlədən dini icmaların üzərinə böyük məsuliyyət düşdüyünü vurğulayıb.

Daha sonra çıxış edən Gəncə şəhəri "İmamzadə ziyarətgah" məscidi dini icmasının sədri Tahir Abbasov respublikamızda vicdan azadlığının yüksək şəkildə təmin olunması üçün yaradılan şəraitdən, dini sahəyə göstərilən qayğıdan məmnunluğunu ifadə edib.

Sonda qeydiyyat şəhadətnamələri dini icma sədrlərinə təqdim edilib.

# BİŞKEKDƏ "MÜASİR DÜNYƏVİ DÖVLƏTDƏ İSLAM" ADLI İKİNCİ BEYNƏLXALQ KONFRANS KEÇİRİLİB



Qırğız Respublikasının Din İşləri üzrə Dövlət Komissiyasının təşəbbüsü ilə Bişkekdə "Müasir dünyəvi dövlətdə İslam" adlı ikinci beynəlxalq konfrans keçirilib. Tədbirdə dünyanın 20 ölkəsindən gələn dövlət qurumlarının nümayəndələri, dinşünas alimlər, ekspertlər iştirak ediblər. Ölkəmizi bu konfransda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) sədrinin müavini Səyavuş Heydərov, Azərbaycanın Qırğız Respublikasındakı səfiri Hidayət Orucov və Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə İnstitutunun baş elmi işçisi Aydın Əlizadə təmsil ediblər.

Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekovun da iştirak etdiyi tədbirdə çıxış edən DQİDK sədrinin müavini Səyavuş Heydərov ölkələr arasında müvafiq istiqamətdə təcrübə mübadiləsinin aparılması, əməkdaşlıq prespektivlərinin müzakirə edilməsi baxımından çox faydalı olan konfrasın təşkilinə və dəvətə görə sözügedən respublikanın Din İşləri üzrə Dövlət Komissiyasına minnətdarlığını bildirib.

Beynəlxalq konfransın panel iclasında Səyavuş Heydərovun "Dini ekstremizmlə mübarizədə internet resursları və KİV-lə işin təşkili" mövzusunda məruzəsi dinlənilib. Natiq öncə Azərbaycanda mövcud olan nümunəvi dövlət-din münasibətləri, tolerant və multikultural mühit barədə danışıb. Bildirib ki, Azərbaycanda milli və dini dözümlülük xalqımızın tarixi ənənələrinə əsaslanır. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ölkəmizdəki dinlər və etnik qruplar arasındakı münasibətlər dövlətçilik konsepsiyasına və dünyəvilik prinsiplərinə uyğun olaraq daha da möhkəmlənib. Bu sahə dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib və hazırda bu siyasət uğurla davam etməkdədir.

S.Heydərov Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızda mövcud olan ictimai-siyasi sabitlik və vətəndaş həmrəyliyinin təməlində multikulturalizm, tolerantlıq, milli-mənəvi dəyərlərə hörmətlə yanaşı, güclü hüquqi baza və dövlətçilik prinsiplərini dayandığını vurğulayıb. Dövlət Komitəsi sədrinin müavini ölkəmizdə dini sahədəki münasibətləri tənzimləyən, Azərbaycan Respublikası Konstitusiyasının vicdan azadlığı və dini etiqad azadlığı prinsipləri əsasında formalaşmış "Dini etiqad azadlığı haqqında" Qanunun müasir dövrün ən mütərəqqi qanunlarından biri olduğunu diqqətə çatdırıb.




Qeyd edib ki, dövlət-din münasibətlərində Azərbaycan modelinin əhəmiyyəti özünü məhz dövlətin məzhəbə dayanan dinə deyil, ekstremizmdən uzaq ortadoksal və təməl əsaslara söykənən dinə əhəmiyyət verməyində göstərir: "Bu istiqamətdə aparılan siyasət istər dövlət, istərsə də ictimaiyyət üçün xüsusi əhəmiyyət kəsb edir və bu amillərin dini ekstremizmin təzahürlərinə qarşı mübarizənin effektivliyinə önəmli təsir göstərir".

Ölkəmizdə 2016-cı ilin "Multikulturalizm İli", 2017-ci ilin isə "İslam Həmrəyliyi İli" elan edildiyini bildirən S.Heydərovun sözlərinə görə, irqi ayrı-seçkiliyə və dözümsüzlüyə qarşı mübarizə sahəsində qlobal platforma statusu qazanmış "Bakı prosesi" dünya xalqları və mədəniyyətləri arasında qarşılıqlı hörmət, əməkdaşlıq və dialoqu təşviq edən qlobal xoşməramlı çağırış kimi dəyərləndirilir.

Çıxışında dini radikalizmə qarşı mübarizədə KİV-in roluna toxunan S.Heydərov Dövlət Komitəsinin bu sahədə dini maarifləndirmə prosesini medianın imkanlarından istifadə edərək uğurla həyata keçirdiyini bildirib. O, DQİDK-nın dəstəyi ilə ənənəvi islami və milli-mənəvi dəyərləri təbliğ etmək məqsədilə televiziya proqramlarının yayımlandığını, cəmiyyətin bütün təbəqələrinə dini radikalizmin və ekstremizmin fəsadlarını çatdırmaq üçün çəkilən sənədli filmlərin telekanallarda nümayiş etdirildiyini deyib.

Azərbaycanın dövlət-din siyasəti üzrə təcrübəsini bölüşməyə hazır olduğunu qeyd edən sədr müavini ölkəmizin dini radikalizm və ekstremizmlə mübarizədə beynəlxalq təşkilatlarla, o cümlədən xarici ölkələrlə əməkdaşlığı dəstəklədiyini vurğulayıb.

# "N" SAYLI HƏRBİ HİSSƏDƏ MAARİFLƏNDİRMƏ TƏDBİRİ BAŞ TUTUB



Hacıqabul rayonunda yerləşən daxili qoşunların "N" saylı hərbi hissəsində noyabrın 26-da maarifləndirmə tədbiri həyata keçirilib.

Tədbirdə əvvəlcə DQİDK-nın sifarişi ilə çəkilmiş "Şəhadət" sənədli filmi nümayiş etdirilib.

Daha sonra çıxış edən hərbi hissənin komandiri polkovnik Etibar İlyasov bu cür maarifləndirmə tədbirlərinin keçirilməsinin milli-mənəvi dəyərlərimizin təbliği, tolerant və multikultural ənənələrimizin təşviqi, vətəndaşlarımızın, xüsusilə gənclərin zərərli dini cərəyanların təsiri altına düşməsinin, o cümlədən din adı altında milli və dövlət maraqlarımıza zidd ideoloji təlimlərin yayılmasının qarşısının alınması baxımından böyük əhəmiyyətə malik olduğunu bildirib. Eyni zamanda, "Şəhadət" sənədli filminin hərbi hissələrdə nümayiş etdirilməsinin təqdirəlayiq hal olduğunu qeyd edib.

DQİDK sədrinin müavini Gündüz İsmayılov bu cür tədbirlərin keçirilməsinin əhəmiyyətindən danışıb. Natiq çıxışında qeyd edib ki, respublikamızda dövlət siyasətinə çevrilən multikulturalizm anlayışı bütövlükdə dünyada mədəni müxtəlifliyin qorunmasına və bu vasitə ilə ümumbəşəri harmoniya yaradılmasına, xalqların, fərqli din və mədəniyyətlərin qarşılıqlı faydalı əməkdaşlığına yönəlib.

Milli təhlükəsizliyimizə əsas təhdidlərdən biri olan dini radikalizmin fəsadlarından da bəhs edən G.İsmayılov bildirib ki, bəzi qrupların din adı altında, xüsusən gənclərimizi çirkin məqsədlərinə alətə çevirməsinə və Azərbaycan gənclərinin bu məqsədlərə qurban getməsinə heç bir vəchlə imkan vermək olmaz. Onun sözlərinə görə, İslam dininin siyasiləşdirilməsi cəhdləri onun terror və müharibədə qorxulu silaha çevrilməsinə səbəb ola bilər. İslamın sağlam təməllərinin əsas götürülməsinin önəminə toxunan sədr müavini bunun sayəsində bir çox problemli məsələlərin asanlıqla öz həllini tapa biləcəyini deyib. Diqqətə çatdırıb ki, bunun üçün, ilk növbədə, İslam dini siyasətdən uzaqlaşdırılaraq sırf elmi-mədəni müstəvidə öz inkişafını tapmalıdır. Bu gün İslam mədəniyyətinin, İslamın elmi gücünün ön plana çıxarılması, problemlərin silah gücü ilə deyil, qarşılıqlı anlaşma və tam elmi əsaslarla həll edilməsi dünyadakı bir çox münaqişə ocaqlarını söndürməyə qadirdir.Sonda zabit və əsgərlərin sualları cavablandırılıb.

# "AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ – 100: DÖVLƏT-DİN MÜNASİBƏTLƏRİ VƏ VARİSLİK ƏNƏNƏLƏRİ"

Noyabrın 22-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə "Azərbaycan Xalq Cümhuriyyəti – 100: dövlət-din münasibətləri və varislik ənənələri" mövzusunda konfrans keçirilib.

Tədbirdə DQİDK-nın rəhbərliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin və AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun rəsmiləri, eyni zamanda DQİDK yanında İctimai Şuranın üzvləri, ölkəmizdə fəaliyyət göstərən dini konfessiyaların rəhbərləri, din xadimləri, gənclər iştirak ediblər.

Konfransı açan Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov Azərbaycan Xalq Cümhuriyyətinin Azərbaycanın dövlətçilik tarixindəki rolu, xalqımız üçün qoyduğu tarixi mirasın önəmi və həmin dövrdəki dövlət-din münasibətləri barədə danışıb. Bildirib ki, Xalq Cümhuriyyətinin gördüyü işlər və müəyyənləşdirdiyi hədəflər çox böyük tarixi əhəmiyyətə malikdir. Cümhuriyyətin mövcudluğunun ilk günlərindən ərazisində yaşayan bütün vətəndaşlara eyni hüquq və azadlıqlar verilib, irqi, milli, dini bərabərsizlik tamamilə aradan qaldırılıb. Hökumət tərəfindən din siyasətini həyata keçirmək məqsədilə Dini Etiqad Nazirliyi yaradılıb, dini təhsil təkmilləşdirilib, din xadimlərinə qayğı, qeyri-müsəlman dinlərə fəaliyyət göstərmələri üçün şərait yaradılıb. Çox qısa ömür sürməsinə baxmayaraq, Cümhuriyyətin əsasını qoyduğu ideyalar Azərbaycan ikinci dəfə müstəqillik əldə etdikdən sonra Ulu Öndər Heydər Əliyev tərəfindən reallığa çevrilib. Diqqətə çatdırılıb ki, Ümummilli Liderin layiqli davamçısı Prezident İlham Əliyev bu şanlı tarixə böyük diqqət və qayğı göstərir. O, 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsinin dövlətçilik ənənələrimizə sahib çıxmaq və onu gələcək nəsillərə ötürmək baxımından təqdirəlayiq addım olduğunu deyib. Əlavə edib ki, DQİDK tərəfindən bu məqsədlə konfranslar keçirilir, eləcə də "Azərbaycan Xalq Cümhuriyyəti: dövlət-din münasibətləri" mövzusunda kitab nəşr etdirilib.

Daha sonra DQİDK-nın şöbə müdiri Nahid Məmmədov təqdimatla çıxış edib. O qeyd edib ki, Azərbaycanda tolerantlıq ideyalarının əsası 1918-ci ildə qoyulub. Bu fakt özünü Azərbaycan Xalq Cümhuriyyətinin İstiqlal bəyannaməsində də göstərir. 1918-ci ildə fəaliyyət göstərən Dini Etiqad Nazirliyi dövlət və din münasibətlərinin hüquq çərçivəsində fəaliyyətini təmin edib. Bu gün olduğu kimi, o zaman da İslam dini ilə yanaşı, başqa dinlərin də fəaliyyətinə geniş imkan yaradılıb. Dini, milli tolerantlığın dövlət işlərində də müşahidə olunduğunu deyən DQİDK-nın şöbə müdiri bildirib ki, 1918-ci ildə Azərbaycan parlamentində müxtəlif millətlərin nümayəndələri təmsil olunub. Bu da Xalq Cümhuriyyəti dövründə bütün millətlərə bərabər hüququn verilməsinin bariz nümunəsidir. Şöbə müdiri vurğulayıb ki, Cümhuriyyət dövründə hər kəsin istədiyi dinin qaydalarına riayət etmək, dini mənsubiyyətini dəyişdirmək, dini təşkilatların işində sərbəst iştirak etmək, habelə heç bir dini qəbul etməmək, dindarların heysiyyətinə toxunmamaq prinsipi əsas götürülüb. O dövrdən miras qalan tolerantlıq ənənələrinin nəticəsidir ki, bu gün Azərbaycan tolerantlığın və konfessiyalararası dialoqun inkişafında xüsusi xidmətləri olan ölkədir.




Bakı Dövlət Universitetinin kafedra müdiri, Qafqaz Müsəlmanları İdarəsinin şöbə müdiri, professor Anar İsgəndərov qeyd edib ki, Xalq Cümhuriyyəti dövründə baş verən ictimai-siyasi hadisələr, maarifçilik hərəkatının genişlənməsi, cəhalət və mövhumata qarşı mübarizə məqsədilə atılan addımlar milli ideologiyamızın zənginləşməsinə mühüm töhfə olub. Müsəlman Şərqində ilk demokratik, hüquqi, dünyəvi dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsi azərbaycanlıların, ilk növbədə, yüksək milli ideyaya və yenilikçi düşüncə tərzinə malik olmasının bariz göstəricisidir. İlklərə imza atan Xalq Cümhuriyyəti ölkədə dini sahənin inkişafına da xüsusi qayğı ilə yanaşaraq, dövlətlə dindar kontingent arasında münasibətlərin yüksək səviyyədə nizamlanması istiqamətində mühüm tədbirlər həyata keçirib. Cəmi 23 ay yaşamasına baxmayaraq, xalqın vicdan azadlığının təmin edilməsi məqsədilə mütərəqqi addımlar atılıb. Anar İsgəndərov deyib ki, İstiqlal Bəyannaməsində dini, sinfi və cinsi mənsubiyyətindən asılı olmayaraq, hər kəsə bərabər şəraitin yaradılması ideyasının öz təsbitini tapması, eləcə də Azərbaycanda yaşayan bütün konfessiyaların nümayəndələrinin parlamentdə təmsil olunması vicdan azadlığı məsələsinin Cümhuriyyətin dövlətçilik fəaliyyətinin əsasını təşkil etməsi fikrini yaradıb.

Daha sonra çıxış edən AMEA-nın Tarix İnstitutunun aparıcı elmi işçisi Kamran İsmayılov bildirib ki, Azərbaycan Xalq Cümhuriyyəti milli dövlətçiliyimizin və müstəqilliyimizin bünövrəsi və ilkin təməlidir. O, mürəkkəb daxili və xarici vəziyyətdə yaranan Xalq Cümhuriyyətinin köklü islahatlara imza atdığını, bir çox sahələr kimi, dini sahədə də nailiyyətlər əldə etdiyini deyib.

Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun Aparat rəhbəri, professor İsaxan Vəliyev təmsil etdiyi qurumun "Azərbaycan Xalq Cümhuriyyəti İli"ndə həyata keçirdiyi tədbirlərin önəminə diqqət çəkib. O, eyni zamanda Xalq Cümhuriyyətinin miras qoyduğu milli dövlətçilik ənənələrinin dövrümüzədək yaşaması və reallaşmasının Ulu Öndər Heydər Əliyevin bilavasitə adı və fəaliyyəti ilə bağlı olduğunu diqqətə çatdırıb.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin şöbə müdiri Rəşad İlyasov, Gürcü Yəhudilərinin Bakı dini icmasının sədri Moisey Bekker və Katolik Kilsəsinin Apostol Prefekturasının keşişi Yozef Marik çıxışlarında Azərbaycanda bu gün olduğu kimi, yüz il bundan əvvəl də cəmiyyətin multikulturalizm ənənələrinə böyük hörmətlə yanaşıldığını, o dövrdən miras qalan tolerantlıq ənənələrinin qorunub saxlanıldığını bildiriblər.

# Azərbaycan İlahiyyat İnstitutu beynəlxalq əlaqələri genişləndirir



İtaliyanın Azərbaycandakı Fövqəladə və Səlahiyyətli Səfiri Auqusto Massari Azərbaycan İlahiyyat İnstitutunda (AİI) olub.

AİI rektoru Ceyhun Məmmədov səfiri salamlayaraq, ölkələrimiz arasında ikitərəfli münasibətlərin, hörmətin və qarşılıqlı etimadın yüksək səviyyəsindən məmnunluğunu, qarşılıqlı əlaqələrin bundan sonra da inkişaf edəcəyinə əmin olduğunu ifadə edib. İnstitut haqqında səfirə geniş məlumat verən rektor AİI-nin beynəlxalq əlaqələrin qurulmasına, qarşılıqlı mübadilələrin həyata keçirilməsinə böyük önəm verdiyini bildirib. C.Məmmədov dünyanın inkişaf etmiş dövlətləri arasında olan İtaliya Respublikasının elm və təhsil mərkəzləri ilə əməkdaşlıq əlaqələrinin yaradılmasının əlahiddə maraq kəsb etdiyini bildirib. İtaliya universitetləri ilə əməkdaşlıqdan söz açan C.Məmmədov xüsusi olaraq vurğulayıb ki, "Azərbaycan multikulturalizmi" fənninin tədris edildiyi qabaqcıl təhsil müəssisələrindən biri də məhz İtaliyanın "La Sapienza" Universitetidir ki, AİI bu tədris ocağı ilə qarşılıqlı əlaqələr qurmaqda maraqlıdır.

AİI rəhbərliyinə səmimi təşəkkürlərini ifadə edən səfir Auqusto Massari yeni yaradılmış İlahiyyat İnstitutuna müvəffəqiyyətlər arzulayıb, belə bir İnstitutun yaradılmasını dünyada sülhün, təhlükəsizliyin bərqərar olmasına böyük töhfə adlandırıb. Səslənən təklifləri müsbət qarşıladığını söyləyən səfir, əlaqələrin qurulması üçün mühüm addımlar atılmasının vacibliyini, qarşılıqlı münasibətlərin daha yüksək səviyyədə inkişaf etməsinə səy göstərməyə hazır olduğunu bildirib.

Daha sonra səfir Auqusto Massari AİI-nin tələbələri ilə görüşüb. AİI rektoru görüş zamanı Azərbaycan–İtaliya ölkələri arasında siyasi, iqtisadi və mədəni əlaqələrdən, bu sahədə Ulu Öndər Heydər Əliyevin irsinin Prezident cənab İlham Əliyevin və Birinci vitse-prezident xanım Mehriban Əliyevanın uğurla davam etdirməsindən söz açıb. C.Məmmədov bildirib ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun dəstəyi ilə İtaliyada Müqəddəs Marçellinio və Pietro katakombalarının bərpa edilməsi, şübhəsiz, böyük hadisədir və tarix durduqca yaşayacaqdır.

İtaliyada təhsil imkanlarını tələbələrin diqqətinə çatdıran AİI rektoru bu ölkədə din sahəsində ixtisaslaşmış müxtəlif universitetlərin olduğunu qeyd edib.

Səfir Auqusto Massari iki ölkə arasında münasibətlərin yüksələn xətlə inkişafından məmnunluğunu ifadə edib. O bildirib ki, Azərbaycana ilk gəldiyi zaman dini liderlərlə görüşüb, Azərbaycanda mövcud olan multikultural mühitdən məmnunluğunu ifadə edib. Din müxtəlif etiqadlı insanların dinc birgəyaşayışını təmin edən faktorlardan biridir.

Səfir bütün dinlərin mənbəyinin eyniliyini nümunə gətirərək, insanların bir-biri ilə əməkdaşlığa açıq olmalarının zəruriliyini ifadə edib.

Tədbirin sonunda tələbələri maraqlandıran suallar cavablandırılıb.

# "Dini maarifləndirmə işinin təşkili: gerçəkliklər və perspektivlər"

***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Hacıqabul Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə noyabrın 26-da Hacıqabulda "Dini maarifləndirmə işinin təşkili: gerçəkliklər və perspektivlər" mövzusunda seminar-treninq keçirilib.***

Müəllimlər, gənclər və digər ictimaiyyət nümayəndələrinin iştirakı ilə baş tutan seminar-treninqi giriş sözü ilə açan RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini – dini qurumlarla işin təşkilatçısı Elvin Şıxəliyev vurğulayıb ki, dini radikalizmin istənilən istiqaməti və forması cəmiyyət üçün təhlükədir. E.Şıxəliyev qeyd edib ki, dini ekstremizmlə mübarizə hər bir vətəndaşın borcudur. Natiq milli-mənəvi dəyərlərimizin qorunub saxlanılmasının vacibliyi, nümunəvi Azərbaycan gəncinin əsas xüsusiyyətləri barədə də danışıb.

Daha sonra çıxış edən DQİDK-nın sədr müavini Gündüz İsmayılov bildirib ki, Şərqlə-Qərbin qovşağında yerləşən və İslam Əməkdaşlıq Təşkilatının fəal üzvlərindən biri olan Azərbaycan hər zaman öz milli-mənəvi, dini dəyərlərinə hörmətlə yanışılan ölkə kimi tanınmaqdadır.

Dövlətin dinə və dindarlara qayğısından da danışan Gündüz İsmayılov deyib ki, dövlət vəsaiti hesabına onlarla məscid inşa edilib və ya əsaslı təmir olunub, ölkəmizdə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədi ilə dini icmalara maliyyə yardımı ayrılıb.

Sədr müavini Gündüz İsmayılov çıxışında dini radikalizm və onun doğurduğu fəsadlardan da bəhs edib. O, dini kimliyimizin milli kimliyimizə qarşı qoyulması, dindar kontingent daxilində dünyəviliyin, tolerantlığın, ənənəvi İslamın zəiflədilməsi, eləcə də dinin siyasiləşdirilməsi kimi hallara rast gəlindiyini diqqətə çatdırıb. Onun sözlərinə görə, məkrli qruplar tərəfindən cəmiyyətdə dini qütbləşmənin və sosial təbəqələşmənin yaradılmasına müəyyən cəhdlər olunur.

Sədr müavini, eyni zamanda dini zəmində qadın hüquqlarının məhdudlaşdırılması, xurafat meyillərinin gücləndirilməsindən də bəhs edib.



Rayon Təhsil Şöbəsinin müdiri Şükür Məmmədov paytaxtda və bölgələrdə keçirilən maarifləndirmə tədbirlərinin əhəmiyyətini yüksək qiymətləndirib.

Tədbir iştirakçıların suallarının cavablandırılması ilə yekunlaşıb.

***Analoji seminar-treninq Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Ağcabədi Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə noyabrın 27-də Ağcabədidə keçirilib.***

Müəllimlər, gənclər və digər ictimaiyyət nümayəndələrinin iştirakı ilə baş tutan seminar-treninqi giriş sözü ilə açan RİH başçısının müavini Naibə Mustafayeva rayondakı dini durum barədə tədbir iştirakçılarına məlumat verib. O qeyd edib ki, rayon ərazisində dini durum sabitdir, dindarlara və dini icmalara diqqət və qayğı göstərilir.

Daha sonra çıxış edən DQİDK-nın sədr müavini Gündüz İsmayılov respublikamızda ictimai-siyasi sabitliyin hökm sürdüyünü, dövlət-din münasibətlərinin yüksək səviyyədə təmin olunduğunu diqqətə çatdırıb. Dini radikalizm və onunla mübarizə yollarından da danışan sədr müavini bildirib ki, hüquq mühafizə orqanları ölkəmizdə ekstremizmin və radikallıq meyillərinin qarşısının alınması məqsədilə ardıcıl və sistemli tədbirlər həyata keçirir. Radikal təriqətlərin ölkəmizdə yayılmasına imkan verilməməsi, xaricdə fəaliyyət göstərən silahlı birləşmələrin tərkibində döyüşən gənclərlə bağlı həyata keçirilən tədbirlər bu fikri təsdiq edən amillərdəndir. G.İsmayılov, həmçinin deyib ki, ekstremizmə qarşı mübarizənin gücləndirilməsi və radikallıq meyillərinin qarşısının alınması ilə bağlı müddəalar Azərbaycan Respublikasının qanunlarında da öz əksini tapıb. DQİDK-nın sədr müavini vurğulayıb ki, Dövlət Komitəsi radikalizmlə mübarizə tədbirləri çərçivəsində dini maarifləndirmənin, xüsusən gənclər arasında aparılmasının tərəfdarıdır.

Gündüz İsmayılov, eyni zamanda bildirib ki, yad dini ideologiyaların yayılması cəhdlərinin qarşısının alınmasında gənclər arasında milli-mənəvi, xüsusilə dini dəyərlərin təbliğinin düzgün aparılması böyük əhəmiyyət daşıyır. Onun sözlərinə görə, milli-mənəvi dəyərlərin təbliğində, eləcə də maarifləndirmə işinin aparılmasında bütün vətəndaşlar fəal iştirak etməlidirlər.

Tədbir iştirakçıların suallarının cavablandırılması ilə yekunlaşıb.

# Azərbaycan İlahiyyat İnstitutunda BDU-nun İlahiyyat fakültəsinin məzunları ilə görüş keçirilib

Azərbaycan İlahiyyat İnstitutunda (AİI) Bakı Dövlət Universitetinin (BDU) İlahiyyat fakültəsinin məzunları ilə görüş keçirilib. İnstitutun rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov tədbir iştirakçılarını salamlayaraq, BDU-nun İlahiyyat fakültəsini müxtəlif illərdə bitirmiş məzunların iştirakı ilə keçirilən görüşü əlamətdar hadisə adlandırıb. Onları bir arada görməkdən məmnunluğunu ifadə edən rektor vaxtilə İlahiyyat fakültəsində təhsil alan gənclərin hazırda dövlət qurumlarında, qeyri-hökumət təşkilatlarında və özəl şirkətlərdə peşəkar kadr kimi müxtəlif vəzifələrdə çalışdığını bildirib.

AİI rəhbəri Azərbaycanda din sahəsinə böyük diqqət və qayğı göstərildiyini, bu siyasətin əsasının Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulduğunu və Prezident İlham Əliyevin həmin siyasəti hazırda böyük uzaqgörənliklə və uğurla davam etdirdiyini vurğulayıb. Ölkəmizdə bir çox dini ibadət ocaqlarının təmir və bərpa olunduğunu, yeni dini təhsil müəssisələrinin yaradıldığını, dini icmalara mütəmadi olaraq maliyyə vəsaiti ayrıldığını, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun bu sahədə məqsədyönlü işlər gördüyünü və uğurlu layihələrə imza atdığını diqqətə çatdırıb.

C.Məmmədov çıxışına davam edərək, Prezidentin 9 fevral 2018-ci il tarixli Sərəncamına əsasən, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) tabeliyində yaradılmış Azərbaycan İlahiyyat İnstitutunun ilahiyyat üzrə ixtisaslaşmış ali təhsil müəssisəsi olduğunu, müvafiq Sərəncama əsasən, BDU-nun İlahiyyat fakültəsinin Azərbaycan İlahiyyat İnstitutunun strukturuna daxil edildiyini söyləyib. İnstitutun yaradılmasının əsas məqsədi Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-



mənəvi mühitin qorunub saxlanılmasını və inkişaf etdirilməsini, dini fəaliyyətin təşkili sahəsində yüksəkixtisaslı kadrların və mütəxəssislərin hazırlanmasını təmin etməkdən ibarətdir.

BDU-nun İlahiyyat fakültəsinin 2004-cü il məzunu DQİDK-nın sədr müavini Gündüz İsmayılov çıxışında bildirib ki, Azərbaycanda dini etiqad azadlığı, əsrlərdən bəri xalq arasında mövcud olan dini dözümlülük və multikulturalizm ənənəsi dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Bu baxımdan Azərbaycan İlahiyyat İnstitutunun yaradılması Prezident İlham Əliyevin Azərbaycançılıq ideologiyasının inkişafını və milli-mənəvi dəyərlərin qorunmasını daim diqqət mərkəzində saxladığının göstəricisidir.

Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin böyük məsləhətçisi Əliheydər Zülfüqarov Azərbaycan İlahiyyat İnstitutunun yaradılmasını ölkə rəhbərliyinin milli dəyərlərimizə göstərdiyi diqqətin bariz nümunəsi kimi dəyərləndirib. O bildirib ki, məzun olaraq borcumuz instituta dəstək olmaq, ali təhsil müəssisəsinin qarşısına qoyduğu məqsədlərin həyata keçirilməsində əlimizdən gələn səyi əsirgəməməkdir.

Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov vurğulayıb ki, AİI-nin hazırlayacağı kadrlar milli-mənəvi dəyərlərimizin qorunmasına, xalqımızın əsrlərin sınağından süzülüb-gələn mental ənənələrinin mühafizəsinə layiqli töhfələrini verəcəklər.

"Şəms" Tərcümə Mərkəzinin direktoru Nəsimi Həsənov məzunlarla bir arada olmaqdan məmnunluğunu ifadə edib. Belə görüşlərin hər il təşkil olunmasının vacibliyini qeyd edərək, hər bir məzunun AİI-yə dəstək olmağa hazır olduğunu vurğulayıb.

"Yeni Çağ" Media Qrupunun rəhbəri Aqil Ələsgər dini radikalizmə qarşı mübarizədə, milli-mənəvi və dini dəyərlərin qorunması istiqamətində ilahiyyatçıların danılmaz rolunu qeyd edərək, AİI-nin maarifləndirmə işinin təşkilində mühüm işlərə imza atacağına ümidvar olduğunu tədbir iştirakçılarının nəzərinə çatdırıb.

# QISA-QISA



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) ölkə ərazisində dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini davam etdirir. Bu istiqamətdə keçirilən tədbirlərdə ölkəmizdəki multikultural və tolerant mühit, həmçinin dini fanatizmə, xurafata, radikalizmə qarşı mübarizənin mahiyyəti haqqında çıxışlar edilir, dövlət-din münasibətlərinin hüquqi bazası barədə məlumat verilir, eləcə də dini icmaların maarifləndirmə sahəsində fəallığının daha da artırılması məqsədilə müzakirələr aparılır. Tədbirlərdə Dövlət Komitəsinin əməkdaşları ilə yanaşı, respublikanın müxtəlif şəhər və rayonlarının icra hakimiyyəti və hüquq mühafizə orqanı rəhbərləri, gənclər, dini icma sədrləri, din xadimləri, dindarlar, ilahiyyatçılar, ziyalılar və ictimaiyyət fəalları iştirak edirlər. Keçirilən tədbirlər DQİDK-nın təşkilatçılığı ilə, eyni zamanda Dövlət Komitəsi ilə müvafiq dövlət qurumları arasında imzalanan Tədbirlər Planına uyğun olaraq reallaşdırılır. Cari ay ərzində bu qəbildən olan tədbirlər:

**1 noyabr** – Balakən Rayon İcra Hakimiyyəti (RİH) və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Zaqatala bölgəsi üzrə şöbəsinin birgə təşkilatçılığı ilə Balakən rayonu Qabaqçöl qəsəbəsi Yeni Şərif kəndi tam



orta məktəbində “Uşaq hüquqları aylığı” çərçivəsində “Uşaqların təhsil hüquqlarının pozulması, erkən nikah problemi” mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin, İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) Quba regional mərkəzinin və Siyəzən Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə Siyəzən şəhəri 3 saylı tam orta məktəbdə “Uşaq hüquqları aylığı” çərçivəsində; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Lənkəran Şəhər Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə “Milli-mənəvi dəyərlərimizin qorunmasında gənclərin rolu” mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Lənkəran Şəhər Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə rayonun Liman şəhər 2 saylı tam orta məktəbində “Zərərli vərdişlər, erkən nikah və onların fəsadları” mövzusunda;

**2 noyabr** - Qax rayonu İlisu kənd tam orta məktəbində DQİDK-nın sifarişi ilə çəkilən “Şəhadət” sənədli filminin nümayişi; DQİDK-nın və Şəmkir Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Natiq Süleymanov adına 2 saylı Çinarlı kənd orta məktəbində “Uşaq hüquqları aylığı” ilə əlaqədar olaraq “Uşaqların zərərli vərdişlərdən qorunmasında miili-mənəvi dəyərlərimizin rolu” mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin və Mingəçevir şəhər Uşaq-Gənclər İnkişaf Mərkəzinin birgə təşkilatçılığı ilə “Uşaq hüquqları aylığı” çərçivəsində tədbir; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Uşaq hüquqları aylığı” çərçivəsində “Uşaqların təhsil hüququnun pozulması: erkən nikah problemi” mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, İnsan Hüquqları üzrə Müvəkkilin Cəlilabad Regional Mərkəzi və Lənkəran Şəhər Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə “Uşaq hüquqları aylığı” çərçivəsində “Uşaqların zərərli vərdişlərdən qorunmasında milli-mənəvi dəyərlərimizin rolu” mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Lerik rayonu Kitabəli Həmidov adına Ambu kənd tam orta məktəbində



“Vətənpərvərliyin təbliği dini radikalizmə qarşı mübarizə vasitəsi kimi” mövzusunda;

**6 noyabr** - DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və Rayon Polis Şöbəsinin birgə təşkilatçılığı ilə Teymurbəy Bayraməlibəyov adına Yeddioymaq kənd tam orta məktəbində “Gənclərin zərərli vərdişlərdən və radikal təsirlərdən qorunması” mövzusunda; Biləsuvar Rayon İcra Hakimiyyəti, DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsi, Biləsuvar rayon Gənclər və İdman idarəsi və Biləsuvar rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə “Uşaq hüquqları aylığı” çərçivəsində “Uşaqları dini fanatizm və radikalizm təhlükəsindən qoruyaq” mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsi və Hacıqabul Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə “Uşaq hüquqları aylığı” çərçivəsində rayonun 4 saylı tam orta məktəbində “Uşaqların zərərli vərdişlərdən qorunmasında milli-mənəvi dəyərlərimizin rolu” mövzusunda; DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsi və Zəngilan Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Zəngilan rayon 8 nömrəli tam orta məktəbdə “Şagirdlərin dini radikalizmin zərərli təsirlərindən mühafizəsi yolları” mövzusunda;

**7 noyabr** - DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsi və Tovuz rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə “Dini ekstremizmə qarşı mübarizədə gənclərin rolu” mövzusunda; Tərtər rayon İcra Hakimiyyəti, DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi və Tərtər Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Tərtər rayonu 6 saylı tam orta məktəbdə “Uşaq Hüquqları aylığı” çərçivəsində “Uşaqları dini fanatizm və radikalizm təhlükəsindən qoruyaq” mövzusunda;

**8 noyabr** - DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Lənkəran Şəhər Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə “Vətənpərvərlik milli-mənəvi dəyərimiz kimi” mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Lənkəran Şəhər Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə 9 Noyabr - Dövlət Bayrağı Günü münasibətilə Lənkəran rayonu Daşdatük kənd ümumi orta məktəbində “Bayrağımız qürurumuzdur” mövzusunda;



**13 noyabr** - DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Lənkəran Şəhər Mərkəzi Kitabxanasının birgə təşkilatçılığı ilə 16 noyabr-Beynəlxalq Tolerantlıq Gününə həsr edilmiş “Tolerantlıq diyarı-Azərbaycan” mövzusunda;

**14 noyabr** – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi, Rayon Polis və Təhsil şöbələrinin birgə təşkilatçılığı ilə “Dini radikalizm, narkomaniya və erkən nigah dövrümüzün bəlasıdır” mövzusunda;

**15 noyabr** – DQİDK-nın, Oğuz Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Anar Əfəndiyev adına Oğuz rayonu Kərimli kənd tam orta məktəbində “Cəmiyyəti dini fanatizm və radikalizm təhlükəsindən qoruyaq” mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin, Mingəçevir Şəhər İcra Hakimiyyətinin və Mingəçevir şəhər 6 saylı tam orta məktəbinin birgə təşkilatçılığı ilə “Gənclərin radikal meyillərdən qorunması” mövzusunda;

**16 noyabr** - DQİDK-nın və Masallı Regional dövlət kollecinin təşkilatçılığı ilə Beynəlxalq Toleranlıq Gününə həsr olunmuş “Tolerantlıq Azərbaycan milli kimliyinin ayrılmaz hissəsi kimi” mövzusunda;

**21 noyabr** – DQİDK və Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin birgə Tədbirlər Planına uyğun olaraq Şəki Penitensiar Müəssisəsində maarifləndirmə tədbir keçirilib.

Tədbirlərdə çıxış edən natiqlər milli-mənəvi, o cümlədən ölkəmizdə tarixən mövcud olan tolerant və multikultural dəyərlərin qorunması, dini radikalizm və ekstremizm kimi neqativ hallarla mübarizə məsələlərinə toxunublar. Dini radikalizmi yaradan səbəblər və onun müasir dövrdəki təzahürlərindən söz açan iştirakçılar bildiriblər ki, bu mövzuda cəmiyyətlə aparılan ictimai müzakirələr radikalizm və terrorizmə qarşı mübarizədə öz müsbət təsirini göstərir. Çıxışçılar bu cür tədbirlərin



Azərbaycan gəncliyinin öz qədim tarixi irsinə, milli-mənəvi dəyərlərinə sadiq qalmalarına, vətənə məhəbbət, torpağa sədaqət ruhunda tərbiyə olunmalarına kömək etdiyini deyiblər. Bildirilib ki, gənclərimizin düzgün istiqamətləndirilməsində, onların sağlam düşüncəli vətəndaş kimi yetişməsində dini icmaların və din xadimlərinin üzərinə böyük məsuliyyət düşür.

Gənclər və uşaqlar arasında maarifləndirmə işinin aparılmasının əhəmiyyətinə toxunulan tədbirlərdə vurğulanıb ki, bu cür tədbirlər uşaqların təlim-tərbiyəsində və onların cəmiyyət üçün faydalı fərd kimi yetişməsində, zərərli vərdişlərlə və narkomaniya ilə mübarizədə, eyni zamanda milli-mənəvi dəyərlərin qorunmasında böyük rol oynayır.

# VƏTƏNDAŞLARA "ELEKTRON HÖKUMƏT" PORTALININ İMKANLARI BARƏDƏ MƏLUMAT VERİLİB




Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planının həyata keçirilməsi ilə bağlı Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Tədbirlər Planına əsasən "Elektron hökumət" portalının imkanları və istifadəsi ilə bağlı vətəndaşlar arasında ictimai maarifləndirmə tədbiri keçirilib.

Noyabrın 22-si Göygöl rayonunda baş tutan tədbirdə DQİDK-nın İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Yaqut Əliyeva Açıq hökumətin təşviqini vacib edən əsas prinsiplər və müddəalar haqqında danışıb. O bu prosesin xüsusilə ictimai maraq kəsb edən qərarların qəbul edilməsində ictimaiyyətin iştirakını genişləndirmək üçün elektron resurslardan istifadə edilməsi baxımından mühüm olduğunu bildirib.

İştirakçılara "Elektron hökumət" portalının imkanları, istifadəsi və əhəmiyyəti haqqında məlumat verən Yaqut Əliyeva, eyni zamanda DQİDK-nın təqdim etdiyi elektron xidmətlər barədə informasiya verib. Dövlət Komitəsinin rəsmi saytının rahat və düzgün istifadə qaydalarını izah edib.

Sonda tədbir iştirakçılarına mövzunu özündə əks etdirən broşürlər paylanılıb, onları maraqlandıran suallar cavablandırılıb.

# DİNİ QURUMLARIN DÖVLƏT REYESTR MƏLUMATI

## Qeydiyyat

**Bakı şəhəri Yehovanın Şahidləri dini icması**

Qeydiyyat tarixi: 08 noyabr 2018-ci il
Qeydiyyat №-si: 100118B – 841
Maliyyə ili: 01 yanvar – 31 dekabr

Hüquqi ünvanı: Bakı şəhəri, Xətai rayonu, Əhmədli qəsəbəsi, 2816-cı məhəllə, 20(Çinar şadlıq evi)

Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan

Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi

Qanuni təmsilçisi: Moroz Leonid Aleksandroviç

## Dəyişiklik

**Ucar rayonu Alpı kənd məscidi dini icması**

Qeydiyyat tarixi: 10 fevral 2010-cu il il
Qeydiyyat №-si: 100110A1 – 210

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Quliyev Əli Səftər oğlu və Quliyev Oqtay Bahadır oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Məhərrəmzadə Alıbəy Əlvan oğlu, Abdullayev Əfqan İsgəndər oğlu, Fəxrətov Pərvin Tərlan oğlu, Məmmədov Abbas Vilayət oğlu, Həsənov Valeh Xanbala oğlu, Əliyev Kənan Soltan oğlu, Hüseynov Vəfadar Əlisa oğlu, Mehdiyev Xəyal Təvəkkül oğlu, Əhmədov Ravin Novruz oğlu, Şıxəliyev Bəhruz Hüseyn oğlu, Mirzəliyev Xalid Hüseyn oğlu, Məmmədov Ramil Seyfi oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 08 noyabr 2018-ci il

**Lənkəran rayonu Vilvan kənd məscidi dini icması**

Qeydiyyat tarixi: 01 iyul 2011-ci il
Qeydiyyat №-si: 100111A1 – 542-5

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Cəbiyev Nəsir İzzət oğlu, Əkbərov Qorxmaz İsa oğlu, Davudov Nəriman İbrahim oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Məmmədov Ramiz Mirismayıl oğlu, Bağırov Səxavət Ağa oğlu, Əkbərov Həmzə Qorxmaz oğlu, İsmayılov Şadil Barət oğlu, Rəhimzadə Şəhriyar Mirhüseyn oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 08 noyabr 2018-ci il

**İsmayıllı rayonu Basqal qəsəbə məscidi dini icması**

Qeydiyyat tarixi: 18 iyul 2016-cı il
Qeydiyyat №-si: 100116A – 677

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Eyvazov Töhid Əliheydər oğlu, Əliyev Sabir Dadaş oğlu, Mövlamov Fariz Mövlam oğlu, Şıxəliyev Qalib Şiralı oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar və Abdullayev Həsən Azad oğlu, İsmayılov Orxan Ədalət oğlu, Balayev Rasim Ağasəmid oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Mövlamov Fariz Mövlam oğlu dini icmasının sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Abdullayev Həsən Azad oğlu dini icmasının sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 12 noyabr 2018-ci il

**Bakı şəhəri Qaradağ rayonu Qızıldaş qəsəbə məscidi dini icması**

Qeydiyyat tarixi: 13 noyabr 2015-ci il
Qeydiyyat №-si: 100115B – 614

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Əhədov Vidadi Vəkilağa oğlu, İmanquliyev Valeh Qulu oğlu, Əsədov Şakir Atduxan oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Mənsiyev Cavidan Malik oğlu, Mustafayev Müşfiq Şükür oğlu, Mustafayeva Gülnar Aydın qızı, Hüseynov Zaur Xanmurad oğlu, Xudiyeva Günel Salamat qızı, Hacıyev Rəsul Rafiq oğlu, Ağayev Adəm Akif oğlu, Mənsimov Xanəli Taryel oğlu, İsayeva Ayşən Rəhim qızı, Süleymanzadə Yaqut İlham qızı, Abbasov Namiq Habil oğlu, Ağayev Vahid İsrafil oğlu, Nadirov Elmar Saatbala oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 12 noyabr 2018-ci il

**Yardımlı rayonu Perimbel kəndi "Hacı Mircəfər" qəsəbə məscidi dini icması**

Qeydiyyat tarixi: 07 dekabr 2009-cu il
Qeydiyyat №-si: 100109A2 – 63

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Xurşidov Niyaməddin Aməd oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Həsənli Altay Əbdül oğlu, Hidayev Qürbət Məmmədağa oğlu, Bəhrəmov Zeynal Mirbəy oğlu, Fəttayev Tural Mirqasid oğlu, Əşrəfov Mirhafis Panı oğlu, Əliyev Vəlixan Məcid oğlu, Xurşidov Rəhim Reyis oğlu, Ağayev Uğur Hadi oğlu, Hüseynov Umud Mirsalam oğlu, Həsənli Müqəddəs Mirəbdül oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Xurşidov Niyaməddin Aməd oğlu dini icmasının sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Həsənov Əbdül Mirsadət oğlu dini icmasının sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 08 noyabr 2018-ci il

**Masallı rayonu Qarğalıq kənd məscidi dini icması**

Qeydiyyat tarixi: 11 dekabr 2009-cu il
Qeydiyyat №-si: 100109A2 – 85

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən İbayev Cəbrayıl Hüseyn oğlu, Nəciyev Əlisultan Ağadədə oğlu, Cəfərov Şura Əzizalı oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Qasımov İbrahimxəlil Hilal oğlu, Həsənov Hamlet Həsənağa oğlu, Abdullayev Arastun İslam oğlu, Vəliyev Qəhraman Təvəkkül oğlu, Qənbərov Saleh Məmmədəli oğlu, Qasımov Əli Hilal oğlu, Qənbərov Hafis Məmmədəli oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

İbayev Cəbrayıl Hüseyn oğlu dini icmasının sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Qasımov İbrahimxəlil Hilal oğlu dini icmasının sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 08 noyabr 2018-ci il

## Ləğv olunma

**Qobustan rayonu Bəklə kənd məscidi dindarlarının dini icması**

Qeydiyyat tarixi: 02.04.2002-ci il
Qeydiyyat №-si: 85

Qobustan rayonu Bəklə kənd məscidi dindarlarının dini icması təsisçilərinin 29.10.2018-ci il tarixli, 01 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

Ləğv olunması: 14 noyabr 2018-ci ildə qeydə alınmışdır.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində 11.12.2002-ci ildə 146 №-li şəhadətnamə ilə dövlət qeydiyyatına alınmış Mingəçevir şəhəri, Mingəçevir kənd "Şeyx Əbdül" ziyarətgahının təsisçilərin 28 noyabr 2018-ci il tarixli ümumi yığıncağında 01№-li protokolu ilə həmin dini icmanın ləğv olunması barədə qərar qəbul edilmişdir.

## E L A N

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində 11.12.2002-ci ildə 146 №-li şəhadətnamə ilə dövlət qeydiyyatına alınmış Mingəçevir şəhəri, Mingəçevir kənd "Şeyx Əbdül" ziyarətgahına məxsus şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən 100110A3-438 saylı şəhadətnamə ilə 16.07.2010-cu il tarixdə dövlət qeydiyyatına alınmış İsmayıllı şəhər (2) məscidi dini icmasına məxsus Nizamnamə və 12.05.2011-ci il tarixli 06№li təsisçilərin tərkibinə edilmiş dəyişikliklərlə bağlı Dini Qurumların dövlət reystrindən Çıxarış itdiyi üçün etibarsız sayılır.

# CƏMİYYƏT və DİN

№ 11 (328) / NOYABR 2018-ci il


## MİSİR ARXEOLOQLARI QƏDİM SƏRDABƏ AŞKAR EDİBLƏR



Misir arxeoloqları Luksor yaxınlığındakı əl-Karna şəhərində eramızdan əvvəl XIII əsrə - Misir fironlarının XIX sülaləsi dövrünə aid "Faorxatep" sərdabəsini aşkar ediblər.

Qadın firon Xatşepsut məbədinin bir neçə metrliyində yerləşən sərdabədə içərisində mumiyalar olan iki sarkofaq tapılıb. Bundan əlavə, elə həmin məzarda mindən çox mərasim heykəlciyi, lülə şəklində bükülmüş bir neçə papirus və fironlar dövrünə aid onlarca digər artefakt olub. Qədim Misir hökmdarlarına yaxın adam olan Faorxatepə məxsus məzarın divarlarını rəngbərəng freskalar və heroqlif yazılar bəzəyir.

## Çinli alimlər insanı gəzən elektrik stansiyasına çeviriblər

Çinin Çjençjou Universitetinin alimləri insanı gəzən elektrik stansiyasına çevirməyi bacarıblar.

Universitetin mütəxəssisləri insan bədəninin hərəkətini enerjiyə çevirə bilən nanogenerator hazırlamağa müvəffəq olublar. Onun köməyi ilə saatları və müxtəlif elektron qurğuları enerji ilə təmin etmək mümkündür. Yeni nanogeneratoru paltarda gəzdirmək və hətta yumaq belə olur.

Alimlərin fikrincə, hərəkəti enerjiyə çevirə bilən yeni texnologiya insanın ənənəvi elektrik enerjisindən asılılığını azalda biləcək.

## Tacikistanda 1,5 kiloqram ağırlığında meteorit parçası tapılıb

Tacikistanın Xocaobiqarm çayının mənbəyində - Arça-Mazar pirinə gedən yolda 1,5 kiloqram ağırlığında meteorit parçası tapılıb.



Rusiya-Tacikistan Slavyan Universitetinin müəllimi jurnalistlərə açıqlamasında meteoritin bu hissəsini turizm marşrutu üzrə səyahətdə olan bir qrup tələbənin təsadüfən tapdığını deyib. Qara rəngdə olan daş bəzən göy rəngə çalır, üzərində barmaq izlərinə bənzəyən paslanmış dəliklər var.

Daşın həcmi 340 kubsantimetr, çəkisi 1440 qramdır. Mütəxəssislərin fikrincə, bu dəmir-daş meteoritidir.

**Yadigar söz**

*Ziqmund Freyd,*
*avstriyalı psixoanalitik*

**Bu gözəl həyat təkcə bizim deyil. Bu həqiqəti anlayıb başqalarına ziyan vermədən yaşamağı öyrənməliyik.**

## Bakı və Abşeron üzrə namaz vaxtları (Dekabr - 2018)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 06:18 | 07:44 | 12:29 | 15:34 | 17:31 | 18:35 |
| 2 | 06:19 | 07:45 | 12:30 | 15:34 | 17:30 | 18:35 |
| 3 | 06:19 | 07:46 | 12:30 | 15:34 | 17:30 | 18:35 |
| 4 | 06:20 | 07:47 | 12:30 | 15:34 | 17:30 | 18:35 |
| 5 | 06:21 | 07:48 | 12:31 | 15:33 | 17:30 | 18:35 |
| 6 | 06:22 | 07:49 | 12:31 | 15:33 | 17:30 | 18:35 |
| 7 | 0623 | 07:49 | 12:32 | 15:33 | 17:30 | 18:35 |
| 8 | 06:24 | 07:50 | 12:32 | 15:33 | 17:30 | 18:35 |
| 9 | 06:24 | 07:51 | 12:33 | 15:33 | 17:30 | 18:35 |
| 10 | 06:25 | 07:52 | 12:33 | 15:33 | 17:30 | 18:35 |
| 11 | 06:26 | 07:53 | 12:33 | 15:33 | 17:30 | 18:35 |
| 12 | 06:27 | 07:54 | 12:34 | 15:34 | 17:30 | 18:36 |
| 13 | 06:27 | 07:55 | 12:34 | 15:34 | 17:30 | 18:36 |
| 14 | 06:28 | 07:55 | 12:35 | 15:34 | 17:31 | 18:36 |
| 15 | 06:29 | 07:56 | 12:35 | 15:34 | 17:31 | 18:36 |
| 16 | 06:29 | 07:57 | 12:36 | 15:35 | 17:31 | 18:37 |
| 17 | 06:30 | 07:57 | 12:36 | 15:35 | 17:31 | 18:37 |
| 18 | 06:31 | 07:58 | 12:37 | 15:35 | 17:32 | 18:38 |
| 19 | 06:31 | 07:59 | 12:37 | 15:36 | 17:32 | 18:38 |
| 20 | 06:32 | 07:59 | 12:38 | 15:36 | 17:33 | 18:38 |
| 21 | 06:32 | 08:00 | 12:38 | 15:36 | 17:33 | 18:39 |
| 22 | 06:33 | 08:00 | 12:39 | 15:37 | 17:34 | 18:39 |
| 23 | 06:33 | 08:01 | 12:39 | 15:37 | 17:34 | 18:40 |
| 24 | 06:34 | 08:01 | 12:40 | 15:38 | 17:35 | 18:40 |
| 25 | 06:34 | 08:02 | 12:40 | 15:39 | 17:35 | 18:41 |
| 26 | 06:35 | 08:02 | 12:41 | 15:39 | 17:36 | 18:42 |
| 27 | 06:35 | 08:02 | 12:41 | 15:40 | 17:36 | 18:42 |
| 28 | 06:35 | 08:03 | 12:42 | 15:41 | 17:37 | 18:43 |
| 29 | 06:36 | 08:03 | 12:42 | 15:41 | 17:38 | 18:44 |
| 30 | 06:36 | 08:03 | 12:43 | 15:42 | 17:39 | 18:44 |
| 31 | 06:36 | 08:03 | 12:43 | 15:43 | 17:39 | 18:45 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

## Finlandiyada Datse "Qarabağ atları" rəsm sərgisi keçirilib

Finlandiyanın Espoo şəhərində Avropa Azərbaycanlıları Konqresinə üzv olan Finlandiya-Azərbaycan Assosiasiyasının (FAA) təşkilatı dəstəyi ilə "Qarabağ atları" rəsm sərgisi açılıb.



Latviyalı rəssam xanım Datse Ştrausanın rəsmlərindən ibarət olan sərgi Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr edilib. Finlandiyada yaşayan rəssamın bu ekspozisiyası dünyanın bir çox ölkələrində nümayiş olunub. Onun əsas məqsədi Qarabağın və Qarabağ atlarının Azərbaycana aid olduğunu təbliğ etməkdir. Açılış mərasimində Finlandiya vətəndaşları, Azərbaycan diasporunun üzvləri və müxtəlif ölkələrin nümayəndələri iştirak ediblər.

## Yaponiyada «super-şəhər» inşa ediləcək

Yaponiya hökuməti "super-şəhər" adlı layihənin reallaşdırılmasını planlaşdırır. Bu şəhərdə qabaqcıl texnologiyaların sürətləndirilmiş rejimdə məqsədəuyğunluğunun dəqiqləşdirilməsi nəzərdə tutulur.

Sözügedən şəhərin sabiq sənaye meydançalarından birində inşa edilməsi planlaşdırılır. Həmin ərazidə insanların yaşayacağı da bildirilir.

"Super şəhərdə" qabaqcıl texnologiyaların, o cümlədən pilotsuz avtomobillərin, video rabitə vasitəsilə telesəhiyyə texnologiyalarının və digər yeniliklərin intensiv şəkildə sınaqları aparılacaq.


Baş redaktor
Səyyad ARAN

Redaksiya şurası:
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Vasim MƏMMƏDƏLİYEV, Raman DADAŞOV (Məsul katib).

Ünvan: AZ 1001, Bakı şəhəri, Əhməd Cavad küçəsi, 12
Telefon: 492 65 23; 437 31 15
Tel/fax: 497 15 39
492 58 29; 437 31 15
E-mail: redaksiya@scwra.gov.az

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
Tiraj: 1200
Sifariş: 355

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894